

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET | № 59 (7314) / Cümə axşamı, 4 aprel 2019-cu il



# BAKI-TBİLİSİ-QARS: regionda sabitliyə, iqtisadi inkişafa böyük töhfə

PREZİDENT İLHAM ƏLİYEV BAKI-TBİLİSİ-QARS DƏMİR YOLU XƏTTİNDƏ HƏRƏKƏT EDƏCƏK SƏRNİŞİN QATARI İLƏ TANIŞ OLUB

BAX: SƏH. 2

## VYANA DANIŞIQLARI: ərazi bütövlüyünün bərpası ilkin şərt kimi



⇨ Bax: səh. 6

## Mehriban Əliyeva: Qarabağın hər bir kəndində, hər bir şəhərində Azərbaycan bayrağı dalğalanacaq

*Heydər Əliyev Fondu tərəfindən yüksək texnologiyalı protezlərlə təmin olunan hərbçilərlə görüş keçirilib*

⇧ Bax: səh. 3



⇧ Bax: səh. 4



## Məhkəmə-hüquq sistemində inqilabi Fərman

⇧ Bax: səh. 5



GÜCLÜ AZƏRBAYCAN ORDUSU:

## Dövlətimizin ərazi bütövlüyünün qorunmasında əsas amil

⇧ Bax: səh. 6




## Komitə sədri SOCAR-ın Gürcüstan nümayəndəliyində

6 — *Əflatun Amaşov:* KİV-lərin maliyyələşməsi üçün başqa yollar da var

10 — "O olmasın, bu olsun" FİLMİN MÜXALİFSAYAQ SSENARİSİ

16 — Artıq çəki baş ağrılarına səbəb olur

### Prezident İlham Əliyev Slovakiyanın yeni dövlət başçısını təbrik edib



Azərbaycan Prezidenti İlham Əliyev Slovakiya Respublikasının yeni seçilmiş Prezidenti Zuzana Çaputovaya təbrik məktubu ünvanlayıb.

Məktubda deyilir: "Hörmətli xanım Çaputova,

Slovakiya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Slovakiya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Slovakiya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm".

### Səhiyyə Nazirliyinin 2 nömrəli Doğum Evinin təmiri ilə bağlı Sərəncam

Prezident İlham Əliyev Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2 nömrəli Doğum Evinin əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Bakı Şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində olan 2 nömrəli Doğum Evinin əsaslı təmiri məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ilkin olaraq 2 milyon manat ayrılsın.

Maliyyə Nazirliyi Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin edəcək.

### Avtomobil yolunun tikintisinə 2,8 milyon manat ayrılıb



Prezident İlham Əliyev Bakı-Şamaxı-Yevlax (12 km)-Xocəsən avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən, Bakı-Şamaxı-Yevlax (12 km)-Xocəsən avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 2,8 milyon (iki milyon səkkiz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılır.

Maliyyə Nazirliyi göstərilən məbləğdə maliyyələşməni təmin etməli, Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

### Heydər Əsədov Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru təyin edilib

Prezident İlham Əliyev Heydər Əsədovun Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru təyin edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncama görə, Heydər Xanış oğlu Əsədov Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru təyin edilir.

# Bakı-Tbilisi-Qars: regionda sabitliyə, iqtisadi inkişafa böyük töhfə

## Prezident İlham Əliyev Bakı-Tbilisi-Qars dəmir yolu xəttində hərəkət edəcək sərnişin qatarı ilə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Bakı-Tbilisi-Qars dəmir yolu xəttində hərəkət edəcək sərnişin qatarı ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Bakı Dəmir Yolu Vağzalında əvvəlcə Qəbələ dəmir yolu stansiyasının binasının eskiz layihəsinə baxdı.

Sonra Prezident İlham Əliyev Bakı-Tbilisi-Qars dəmir yolu xəttində hərəkət edəcək sərnişin qatarı ilə tanış oldu.











"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov bildirdi ki, "Azərbaycan Dəmir Yolları" QSC-nin sifarişi ilə İsveçrənin "Stadler Rail Group" şirkəti tərəfindən istehsal olunan 10 vaqondan ibarət sərnişin qatarı Türkiyə və Gürcüstandan keçməklə martın 29-da Bakıya çatıb. Amma bundan əvvəl qatar Axalkalakidə quraşdırılmış xüsusi qurğuda test rejimində sınaqdan keçirilib. Qatarların Türkiyədə hərəkəti üçün Gürcüstan-Türkiyə-Gürcüstan sərhəd-keçid məntəqəsində vaqonda təkər cütlərinin eninə bazasının avtomatik olaraq 1520 millimetrdən 1435 millimetrə və əksinə dəyişdirilməsini nəzərdə tutan yeni qurğu quraşdırılıb. Qatarda doqquz sərnişin vaqonu və bir restoran var. Vaqonlar "standart", "komfort", "biznes" və "restoran" olmaqla dörd kateqoriyada istehsal edilib. Kateqoriyasından asılı olaraq, vaqonlar



10, 20 və 32 nəfərlikdir. Ümumilikdə qatarda bir istiqamətə 246 yer nəzərdə tutulub. Saatda 160 kilometr sürətlə hərəkət etmək imkanına malik qatardakı arabacıqlar pnevmatik asılqanla təmin edilib ki, bu da döngələrdə vaqonun tarazlığını tənzimləyir. Bundan başqa, hər bir vaqon dizel generatoru avadanlığı ilə təmin olunub. Bu da lokomotivdə cərəyan olmadıqda vaqonu və ondakı bütün elektrik enerjisi istifadəçilərini 24 saat fasiləsiz elektrik enerjisi ilə təmin edəcək.

Qeyd edək ki, Bakı-Tbilisi-Qars marşrutu ilə sərnişin daşınmasının təşkili bu ilə planlaşdırılıb. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti ilə İsveçrənin "Stadler Rail Group" şirkəti arasında imzalanan müqaviləyə əsasən ikinci mərhələdə daha 10 vaqonun gətirilməsi nəzərdə tutulur.

Xatırladaq ki, müstəqillik tariximizin möhtəşəm layihələrindən olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti 2017-ci ilin oktyabr ayında Beynəlxalq Dəniz Ticarət Limanında keçirilən təntənəli mərasimlə istifadəyə verilib. Asiya ilə Avropanı birləşdirən və Avrasiya məkanı üçün yeni yüksəliş layihəsi olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti Prezident İlham Əliyevin siyasi iradəsi sayəsində reallığa çevrilib. Qonşu Türkiyə və Gürcüstanla sıx əməkdaşlığın nəticəsi olan Bakı-Tbilisi-Qars layihəsi ölkələrimiz arasındakı əlaqələrin strateji təzahürünü də nümayiş etdirir. Bu yolla artıq yüklərin daşınması uğurla həyata keçirilir. Bununla da çox mühüm tranzit neft-qaz kəmərlərinə mənsub Azərbaycan bu strateji layihənin reallaşması ilə özünün nəinki regionda, bütünlükdə Avrasiya qitəsindəki əhəmiyyətini artırıb. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin işə düşməsi Azərbaycanın dövlət müstəqilliyinin gücləndirilməsində, iqtisadi qüdrətinin artırılmasında yeni mühüm strateji amilə çevrilib və regionda sabitliyə, xalqlarımızın daha da yaxınlaşmasına və iqtisadi inkişafa böyük töhfədir.

# *Mehriban Əliyeva:* Qarabağın hər bir kəndində, hər bir şəhərində Azərbaycan bayrağı dalğalanacaq

## *Heydər Əliyev Fondu tərəfindən yüksək texnologiyalı protezlərlə təmin olunan hərbçilərlə görüş keçirilib*

Heydər Əliyev Fondu tərəfindən yüksək texnologiyalı protezlərlə təmin olunan hərbçilərlə aprelin 3-də görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzində keçirilən görüşdə əvvəlcə Aprel döyüşləri şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov tədbirdə çıxış edərək bildirib ki, üç il bundan əvvəl Heydər Əliyev Fondu "2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsinə başlayıb. Artıq bu layihənin ikinci mərhələsi yekunlaşıb. Ötən 3 il ərzində 100-dən çox zabit və əsgər yüksək texnologiyalı protezlərlə təmin olunub. Bugünkü görüşün üç il bundan əvvəlki





Aprel döyüşlərinə, ordumuzun qələbə gününə təsadüf etdiyini deyən Anar Ələkbərov Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın görüş iştirakçılarına müraciətini oxuyub.

Müraciətdə deyilir: "Azərbaycanın əzəli tarixi torpağı olan Dağlıq Qarabağ və digər yeddi rayonumuz artıq 25 ildən çoxdur Ermənistan respublikası tərəfindən işğal olunub. Bu hərbi təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal altına düşüb, bir milyondan çox azərbaycanlı öz doğma torpağında qaçqın və köçkün vəziyyətində yaşayır. 1994-cü ildə atəşkəs razılığının əldə olunmasına baxmayaraq, Ermənistan Azərbaycana qarşı dəfələrlə silahlı təxribat törətmiş, lakin xalqımızın sizin kimi igid oğullarının qəhrəmanlığı və şücaəti sayəsində Azərbaycan Ordusu bu təxribatların qarşısını alaraq düşmənə hər zaman layiqli cavab vermişdir.

Siz Vətən yolunda qəhrəmanlıq göstərərək Azərbaycanın ərazi bütövlüyünün bərpası, müstəqilliyi, ölkəmizin daha qüdrətli, daha möhkəm olması yolunda sağlamlığınızı itirmisiniz. Bununla da öz ölkənizə, xalqınıza, Prezident və Ali Baş Komandanınıza sadiqlik nümayiş etdirmisiniz. Azərbaycan dövləti sizin fəaliyyətinizi yüksək qiymətləndirir, sizin kimi mərd və cəsarətli oğullarının olması ilə fəxr edir. Sizin apardığınız mübarizə haqq mübarizəsidir. Azərbaycan dövləti münaqişənin ədalətli, beynəlxalq hüququn prinsipləri və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması üçün əlindən gələni əsirgəmir.

2016-cı ildə baş vermiş Aprel döyüşlərindən 3 il ötür. Bu döyüşlər bir daha bütün dünyaya nümayiş etdirdi ki, Azərbaycan dövləti işğalla heç zaman barışmayacaq. Aprel döyüşləri Azərbaycan xalqının vətənpərvərliyini, həmrəyliyini və yenilməz iradəsini bir daha nümayiş etdirdi. Məhz Aprel döyüşlərinin cəsarətli iştirakçılarının qəhrəmanlığı nəticəsində bu gün Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər zamanı bizim itkilərimiz oldu. Bu itkilər bizim hamımız, hər bir azərbaycanlı üçün böyük dərddir. Azərbaycan gəncləri, əsgərlərimiz, zabitlərimiz qəhrəmanlıq göstərərək ömürlərini Vətən yolunda qurban verdilər, şəhid oldular. Öz həyatını Vətən naminə qurban vermiş mərd oğullarımızın xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır.

Azərbaycan dövləti və Azərbaycan xalqı üçün hər bir əsgər əzizdir, dəyərlidir. Sizin sağlamlığınızın bərpası və normal həyata qayıtmağınız üçün Azərbaycan dövləti bütün lazımı addımları atır və bundan sonra da atacaqdır. Mən sizin hər birinizə cansağlığı və uğurlar arzulayıram".





Görüşdə polkovnik-leytenant Eldəniz Sadıqov çıxış edərək deyib ki, 3 il bundan əvvəl baş vermiş Aprel döyüşlərində Azərbaycan Ordusu düşmənə və bütün dünyaya öz gücünü sübut etdi. 2016-cı ilin aprel ayında düşmənin kəşfiyyat və diversiya qruplarının hücumunun qarşısı Azərbaycan Ordusu tərəfindən alındı. Düşmənin müdafiə xətti tez bir zamanda yarılaraq mühüm strateji yüksəkliklər işğaldan azad edildi. Bu, bir daha sübut etdi ki, bizim güclü və nizami ordumuz var. Biz öz torpaqlarımızı geri qaytaracağıq. Azərbaycanın Ali Baş Komandanı ordumuza yüksək qayğı göstərir, hərbçilərin məişət şəraitinin yaxşılaşdırılmasına, müasir hərbi hissələrin tikilməsinə, zabitlərin yeni evlərlə təmin olunmasına böyük diqqət ayırır. "Aprel döyüşlərində mən və mənim silahdaşlarım bilmirdik ki, şəhid olacağıq və ya sağ qalacağıq. Biz o haqda heç düşünmürdük. Çünki inanırdıq ki, biz şəhid olsaq da, Ali Baş Komandan, Birinci vitse-prezidentimiz, dövlətimiz və xalqımız bizim ailələrimizin yanında olacaq", - deyə Eldəniz Sadıqov bildirib.

Xidməti vəzifələrini yerinə yetirərkən sağlamlıqlarını itirən zabitlərin, əsgərlərin özlərini cəmiyyətdən kənar hiss etmədiklərini söyləyən kapitan Amil Dadaşov bununla qürur duyduqlarını qeyd edərək deyib: "Aprel döyüşlərində yaralanan hərbçi yoldaşlarım artıq üç il ərzində dinamik həyat fəaliyyəti ilə məşğul olurlar, insanların arasındadırlar". Amil Dadaşov onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürünü bildirib.

Baş leytenant Namiq Əliyev qeyd edib ki, Aprel döyüşlərində yaralanmış əsgər və zabitlər Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığı ilə ən müasir, hər cür hərəkət qabiliyyətinə malik protezlərlə təmin edilib. "Bütün bunlar bizlərə verilən dəyər və qiymətdir. Bu gün biz ayağımızı, gözümüzü itirsək də qürur və əzəmətlə dayanırıq. Çünki biz gücümüzü torpaqdan alırıq", - deyə Namiq Əliyev bildirib.

Görüşdə MEDİCOM şirkətinin direktoru Anar Rüstəmov Heydər Əliyev Fonduna minnətdarlığını bildirərək, protezlərlə təmin edilən hərbçilərimizə də layihə çərçivəsində görülən işlərdəki ruh yüksəkliyinə görə təşəkkürünü bildirib.

⇨ Davamı 4-cü səhifədə

# *Mehriban Əliyeva:* Qarabağın hər bir kəndində, hər bir şəhərində Azərbaycan bayrağı dalğalanacaq

***Heydər Əliyev Fondu tərəfindən yüksək texnologiyalı protezlərlə təmin olunan hərbçilərlə görüş keçirilib***





⇨ Əvvəli 3-cü səhifədə

Sonra hərbçilərə Heydər Əliyev Fondunun təşəkkürnamələri təqdim edildi.

Daha sonra Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva yüksək texnologiyalı protezlərlə təmin olunan hərbçilərlə görüşdü, onlarla səmimi söhbət etdi.

Söhbət zamanı Birinci vitse-prezident vətənpərvər övladlarımızın qəhrəmanlığını, şücaətini yüksək dəyərləndirdiyini, hər zaman onlara dəstək olacağını vurğulayaraq dedi:

-Siz hər bir insan üçün çox dəyərli olan sağlamlığınızı Vətən, torpaq yolunda qurban vermisiniz. Siz güllələr, bomba altında Azərbaycan uğrunda, torpağımız, Vətənimiz uğrunda həyatınızı qurban verməyə hazır olmusunuz. Mən fəxr edirəm ki, Azərbaycanın belə oğulları var, mənim belə qardaşlarım var.

Mən hər zaman deyirəm ki, Azərbaycan çox zəngin ölkədir, sərvətləri, gözəl təbiəti var. Amma bizim ən böyük sərvətimiz Azərbaycan xalqıdır, Azərbaycan insanıdır. Doğrudan da Azərbaycan xalqı fəxr etməlidir ki, sizin kimi oğullar yetirib. Analarımız fəxr etməlidirlər ki, sizin kimi igid övladlar böyüdüblər. Belə xalqla, belə əsgərlərlə, zabitlərlə, belə qardaşlarla biz Qarabağı mütləq qaytaracağıq. Qarabağın hər bir kəndində, hər bir şəhərində Azərbaycan bayrağı dalğalanacaq.

Mən bir daha sizə dərin minnətdarlığımı bildirirəm. Mən bilirəm ki, Heydər Əliyev Fondunun əməkdaşları daim sizinlə ünsiyyətdədirlər. Bir daha sizi əmin etmək istəyirəm ki, hər bir problemin həllində biz əlimizdən gələn hər şeyi etməyə hazırıq. Siz müraciət edirsiniz, bilirəm ünsiyyətdəsiniz. Hər bir problemin həllini şəxsən özüm diqqətdə saxlayacağam. Mən mümkün olan köməyi ən yüksək səviyyədə göstərəcəyəm. Sağ olun.



Hərbçilər göstərdiyi diqqət və qayğıya görə Mehriban Əliyevaya minnətdarlıqlarını bildirdilər.

Sonda xatirə şəkli çəkdirildi.

Qeyd edək ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondu "2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsini həyata keçirib. 2017-ci ildə Heydər Əliyev Fondunun və müvafiq dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə yaradılan işçi qrupu 2016-cı il Aprel döyüşləri zamanı yaralanmış və protezləşməyə ehtiyacı olan hər bir əsgər və zabitlə görüşlər keçirib, onlara fərdi yanaşma tətbiq olunub. Belə ki, Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin fərdi xüsusiyyətləri, onların aktivlik dərəcələri, həyat tərzləri, məşğuliyyətləri və hər bir istifadəçinin protezlərə olan fərdi tələbləri təhlil edilərək hərbçilərimiz üçün uyğun, müasir protez istehsalçıları olan qabaqcıl şirkətlərin yüksək texnologiyalı məhsulları seçilib.

Tətbiq edilən yeni protezlərin texniki imkanları amputasiya olunmuş hissə ilə hərəkət uyğunluq yaradır. Bunun sayəsində protezlə ayaq və yaxud əl bir-birinə maksimum uyğunlaşmış olur. İstifadəçi protezi amputasiya olunmuş hissənin davamı kimi hiss edir və daha rahat addım atır, aktiv hərəkət edir.

Qarabağ müharibəsi əlillərinə dövlət qayğısı siyasətinə dəstək məqsədi daşıyan bu layihənin davamı olaraq 2018-ci və 2019-cu illərdə daha bir qrup Qarabağ müharibəsi əlili Heydər Əliyev Fondunun dəstəyi ilə yüksək texnologiyalı protezlərlə təmin olunub. Ümumilikdə layihə çərçivəsində protezlərlə təmin olunan 100-dən çox Qarabağ müharibəsi əlili artıq aktiv həyata qayıdaraq əmək fəaliyyətini davam etdirir.

# Məhkəmə-hüquq sistemində İNQİLABİ FƏRMAN

**Azərbaycanın davamlı tərəqqisinin təmin edilməsi məqsədilə bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sistemindən də yan keçmədi. Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 3 aprel tarixli Fərmanı islahatların dərinləşdirilməsini zəruri etdi. Bu Fərmanla ölkə Prezidenti məhkəmələrdə baş verən neqativ halların aradan qaldırılmasını, şəffaflığın təmin olunmasını, hər bir sahə üzrə savadlı hakimlərin proseslərə cəlb olunmasını qarşıya vəzifə kimi qoydu.**



**Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Fəzail Ağamalı bildirdi ki,** 2018-ci ilin növbədənkənar prezident seçkilərindən sonra Azərbaycanda bütün sahələrdə islahatlar, o cümlədən struktur islahatları geniş vüsət aldı: "Aprelin 3-də ölkə Prezitdentinin imzalamış olduğu Fərman bütövlükdə Azərbaycanda məhkəmə-hüquq sisteminin yenidən qurulmasını təmin edən inqilabi bir hadisədir. Sirr deyil ki, məhkəmələrimizdə neqativ hallar, sapmalar müşahidə olunurdu. Bu, dəfələrlə bir deputat kimi mənə ünvanlanan müraciətlərdə də öz əksini tapmışdı."

Milli Məclisin deputatı qeyd etdi ki, məhkəmə sistemində kifayət qədər haqqı-ədaləti əsas götürən qanunun aliliyinə hörmət edən hakimlərlə bərabər, onun əks yolunu tutan dırnaqarası qanun xidmətçilərimiz də var: "Ölkə başçısının məhkəmə-hüquq sistemində neqativ halların və qanuna zidd hərəkətlərin aradan qaldırılması üçün imzalamış olduğu bu Fərman düşünürəm ki, özünün çox ciddi nəticələrini göstərəcək. Həqiqətən məhkəmələrin müstəqil olması, onların Azərbaycan qanunlarına söykənərək qəbul etdiyi qərarlarda haqqa və ədalətə söykənməsi, sözün həqiqi mənasında vətəndaşların hüquq və azadlıqlarının təmin olunması hər bir vətəndaşın ən böyük istəyidir. Bu Fərman sahibkarların müdafiəsində, onların məhkəmə işlərinin ədalətli aparılmasında böyük rol oynayacaq. Artıq sahibkarlar ayrı-ayrı məhkəmələrin qeyri-qanuni şəkildə qəbul etmiş olduqları qərarlarla çətin duruma düşməyəcəklər."

F.Ağamalı xüsusi olaraq bildirdi ki, bir çox sahələrdə tam şəffaflığın təmin olunduğu, korrupsiya hallarının sıfırlandığı bir reallıqda bunu həm də məhkəmə-hüquq sistemində görəcəyik: "Məhkəmələr tam şəkildə qanunun aliliyinə riayət edərək, neqativ hallardan uzaq və heç bir məmurun tapşırığına qulaq asmayan bir ədalət instansiyasına çevriləcək. Bütün Azərbaycan vətəndaşları bunun arzusundadırlar."

**Siyasi şərhçi Arzu Nağıyev isə bildirdi ki,** son vaxtlar ölkədə həyata keçirilən islahatlar məhkəmə-hüquq sistemindən də yan keçə bilməzdi: "Bu sahədə də genişmiqyaslı islahatların aparılması zəruri idi. Dövlət başçısı dəfələrlə qeyd etmişdi ki, məhkəmə-hüquq sistemində də köklü islahatlar həyata keçirilməlidir. Bu islahatların hamısı birmənalı şəkildə istər sahibkarlığa bağlı, istər digər hüquqi aktlarla bağlı çox mühüm əhəmiyyət kəsb edir. Məlumdur ki, sahibkarların normal fəaliyyət göstərmələri, məhkəmələrdə süni surətdə yaranmış iqtisadi problemlərin həllini həyata keçirmək üçün şəffaflığın yaradılması birmənalı şəkildə lazım idi. Çünki bu, insanların rifahına qulluq edən amillərdən biridir. Məhz buna görə də düşünürəm ki, Prezidentin imzaladığı bu Fərman çox mühüm əhəmiyyət kəsb edir. Bu bir daha Azərbaycanın suverenliyinə, təhlükəsizliyinə, insanların rifahına xidmət edir. Bu eyni zamanda, islahatların daha dərindən aparılmasına təkan verən amillərdən biridir."

**Şəmsiyyə Əliqızı,**
***"İki sahil"***

## GÜCLÜ AZƏRBAYCAN ORDUSU:

# Dövlətimizin ərazi bütövlüyünün qorunmasında əsas amil

**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin bugünlərdə böyük bir tarixi zəfərin-aprel döyüşləri gününün üçüncü ildönümündə Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsində olması təsadüfi bir tarix deyildi. Bu, ölkə rəhbərinin həm ordu quruculuğuna böyük diqqət ayırdığının, həm də şanlı qalibiyyət tariximizə aparan həmin döyüşlərdə qəhrəmancasına vuruşub şəhidlərimizin ruhuna və qazilərimizin ehtişamına olan böyük ehtiramın dövlət səviyyəsində göstəricisi idi. Prezident İlham Əliyevin hərbi hissənin xüsusi hazırlıq təlim meydanında xüsusi təyinatlıların döyüş hazırlığını böyük fəxr hissi ilə izləməsi son 15 ildə həyata keçirilən güclü ordu quruculuğunun nəticəsi kimi ortaya çıxan möhtəşəm qürur tablosu idi. Ali Baş Komandan çıxışında da məhz elə bu qürur və fəxarət notlarını özündə ehtiva edən fikirlərini bəyan edib. Prezidentin məlum çıxışında vurğulanan müvafiq məqamlar təkcə Milli Ordumuzun deyil, bütövlükdə Azərbaycanın inkişaf mənzərəsini əks etdirirdi.**



### Azərbaycanın güclü ordu quruculuğu- dünya miqyasında etiraf olunan hərbi potensial

Prezident çıxışında Azərbaycanın bu gün ordu quruculuğu baxımından dünyanın güclü ölkələri sırasında olduğunu, sonuncu reytinqə əsasən dünya miqyasında öz potensialına görə 52-ci yerdə sıralandığını bildirib. Beynəlxalq ictimaiyyət 2018-ci ildə ölkəmizdə keçirilən iki hərbi paradda bu qüdrətli hərbi potensialın şahidi olub. Ondan əvvəl isə təbii ki, 2016-cı ildə Milli Ordumuz öz yüksək səviyyəli döyüş qabiliyyətini aprel döyüşlərində əyani şəkildə nümayiş etdirib. Ötən ilin uğurlu Naxçıvan əməliyyatından söz açan Prezident İlham Əliyev bunu ordumuzun peşəkarlığı və yüksək döyüş qabiliyyətinin sübutu kimi dəyərləndirib. Ali Baş Komandan Azərbaycanda ordu quruculuğuna dair bütün mühüm tədbirlərin ardıcıl surətdə, dünya təcrübəsi nəzərə alınmaqla həyata keçirildiyini vurğulayaraq gələcəkdə də bu istiqamətdə davamlı işlərin həyata keçiriləcəyini qeyd edib.



### Aprel döyüşləri - müasir Azərbaycan tarixinin ən uğurlu hərbi əməliyyatlarından biri

Prezidentin N saylı hərbi hissədəki çıxışında diqqəti yönəltdiyi əsas məqam təbii ki, aprel döyüşləri idi. Ali Baş Komandan 3 il əvvəl indiki tarixdə baş verən döyüşlərdə şəhid olan qəhrəmanlarımızı böyük ehtiramla anaraq həmin döyüşləri bizim böyük tarixi qələbəmiz və müasir tariximizdə ən uğurlu hərbi əməliyyatlardan biri kimi səciyyələndirib: “Yaralı hərbçilərimizin müalicəsi, bərpası üçün dövlət əlindən gələni əsirgəməyib və yaralanmış bütün hərbçilər xoşbəxtlikdən normal həyata qayıtdılar. Onların müalicəsi, bərpası, aktiv həyata qayıtmaları üçün bütün lazımi işlər görülmüşdür. Yaxşı bilirsiniz ki, döyüşlərə qədər Ermənistan silahlı qüvvələri işğal edilmiş ərazilərdən bizim yaşayış məntəqələrini, hərbi mövqelərimizi daim atəşə tuturdu. Ermənistanın təxribatının qarşısını almaq üçün Azərbaycan Ordusu çox uğurlu əməliyyat keçirmiş və vaxtilə işğal edilmiş Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etmişdir. Minlərlə hektar torpaq işğalçılardan azad edildi, on minlərlə hektar ərazi nəzarətimizə keçdi. Vaxtilə işğal edilmiş torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. Döyüşlər zamanı hərbçilərimiz peşəkarlıq, qəhrəmanlıq göstərmişlər. Bir daha göstərmişlər ki, Azərbaycan əsgəri, zabiti həm peşəkardır, həm Vətənə bağlıdır, həm də istənilən anda öz vəzifə borcunu yerinə yetirməyə hazırdır”.



Prezident aprel döyüşlərinin önəmini hərbi aspektdən təhlil etməklə yanaşı, mənəvi-psixoloji baxımdan da böyük əhəmiyyətə malik olduğunu, Azərbaycan bu zaman Ermənistanın özləri üçün yaradıb təsəlli tapdıqları mifi tamamilə darmadağın etdiyini diqqətə çatdırıb. Ali Baş Komandan döyüşlərdən sonra getdiyi təmas xəttinə yaxın yerləşən kəndlərdə vətəndaşlarla görüşü zamanı həmin insanlarda olan güclü milli ruhu, qorxmazlığı, cəsurluğu ürəkdən təqdir etdiyini çıxışında vurğulayıb. Çünki bu mülki vətəndaşlar atəş altında ölümlə üzbəüz qalsalar da, öz doğma yurdlarını tərk etməmişdilər. Azərbaycanı aprel zəfərinə götürən yol hərbçilərimizin yüksək döyüş hazırlığı ilə yanaşı, həmin mülki vətəndaşların qəhrəman ruhlarının vəhdətindən yaranıb.



### Cocuq Mərcanlının timsalında yeni həyatın qayıdışı

Aprel zəfərinin ən gözəl nəticələrindən biri də qəhrəman ordumuzun Cocuq Mərcanlı kəndini işğaldan azad etməsidir. Prezident çıxışında aprel zəfəri nəticəsində Cocuq Mərcanlı kəndinə yeni həyatın verildiyini, kəndin qısa müddət ərzində yenidən qurulduğunu, 150 fərdi ev, məktəb, uşaq bağçası, tibb məntəqəsi, Şuşa məscidinin bənzəri olan məscidin tikildiyi, yeni iş yerlərinin yaradıldığını bildirib: “Yəni Cocuq Mərcanlıya həyat qayıdıb. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmayacaq. Bu, bir daha onu göstərir ki, hər bir Azərbaycan vətəndaşı bir arzu ilə yaşayır - bizim işğal altındakı torpaqlarımız tezliklə azad olunsun və Azərbaycan öz ərazi bütövlüyünü bərpa etsin”.

### Azərbaycan Ordusu dövlətimizin ərazi bütövlüyünün qorunması işində rol oynayan əsas amil kimi

Təbii ki, dövlətimiz təhlükəsizliyimizin qarantı olan Milli Ordumuzun hər bir baxımdan təminatı məsələsini öz siyasi xəttində prioritet kimi müəyyənləşdirib.

Prezident İlham Əliyev çıxışında fəxarət mənbəyimiz olan Azərbaycan Ordusunu dövlətimizin ərazi bütövlüyünün qorunması işində rol oynayan əsas amili kimi qiymətləndirib. Hərbçilərin məişət problemlərinin həll olunması, onların yeni mənzillərlə təmin edilməsi, hərbi hissələrin yenidən qurulması, yüksək səviyyəli hərbi şəhərciklərin yaradılması, həmçinin hərbi hissələrdəki mülki işlərdə 20 minə yaxın mülki şəxsin işlə təmin edilməsi bütövlükdə ordunun inkişafına və həm də ümumilikdə Azərbaycan vətəndaşının rifahına xidmət edən sosial siyasətin parlaq təzahürləridir.

### Son Vyana görüşünün önəmi: münaqişənin həllində mövcud formatın bir daha təsdiqlənməsi

Prezident İlham Əliyevin məlum Vyana görüşündən sonra aprel zəfərinin 3-cü ildönümündə hərbi hissəyə səfəri və oradakı çıxışında vurğuladığı məqamlar da təsadüfi deyildi. Bu, dövlətin öz tarixi günlərinə böyük ehtiramının ifadəsi olduğu kimi, həm də işğalçı Ermənistana göndərilən növbəti mesaj idi. Prezidentin çıxışında mesajların mahiyyəti bundan ibarət idi ki, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın mövqeyində heç bir dəyişiklik yoxdur və olmayacaq: “Bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bu gün bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Bütün mötəbər beynəlxalq təşkilatlar müvafiq qərar və qətnamələr qəbul etmişlər. Bu, tarixi və hüquqi əsasdır. Siz bilirsiniz ki, Ermənistanın yeni rəhbərliyi danışıqların formatını dəyişdirmək istəmişdir. Ancaq Azərbaycanın birmənalı mövqeyi bunu mümkün etməmişdir. Son Vyana görüşü, o cümlədən ona görə önəmli idi ki, bu mövcud formatı bir daha təsdiqlədi. Haqq-ədalət, tarixi həqiqət bizim tərəfimizdədir. İqtisadi güc də, hərbi güc də bizim tərəfimizdədir. Son illərdə görülmüş işlər, hərbi sahədə aparılan islahatlar, hərbi gücümüzün artırılması, həm siyasi meydanlarda, həm də döyüş meydanlarında qələbələr bizi daha da ruhlandırır, daha da gücləndirir”.

✍ **Sevinc Abdullayeva,**
***“İki sahil”***

# Atəşkəs 22 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyindən Trend-ə verilən məlumata görə, Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Quşçu Ayrım kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Mərzili, Füzuli rayonunun Qobu Dilağarda, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Əflatun Amaşov:*

# KİV-lərin maliyyələşməsi üçün başqa yollar da var



"Artıq bir müddətdir ki, ayrı-ayrı kütləvi informasiya vasitələri Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondundan (KİVDF) maliyyə alır. Maliyyəni ayırmaqda məqsəd ondan ibarət deyildi ki, qəzetlərimiz gözlərini ancaq dövlət tərəfindən ayrılan maliyyəyə diksinlər". **Bunu "İki sahil" qəzetinə Azərbaycan Mətbuat Şurasının sədri (MŞ), Milli Məclisin deputatı Əflatun Amaşov bildirib.**

MŞ sədri vurğulayıb ki, KİV-lərin maliyyələşməsi üçün başqa yollar da var: "Buraya abunə, reklam gəlirlərini aid etmək olar. Artıq Azərbaycanda unudulub ki, abunə ilə bağlı hansı kampaniya keçirilir. Məsələn, Ukraynada, Rusiyada, Türkiyədə və digər ölkələrdə qəzetlərin əməkdaşları ilə oxucuların görüşləri olur və həmin görüşlərdə çoxsaylı abunələr yazılır. Digər tərəfdən, qəzet də futbol komandası kimidir, futbol komandalarındakı kimi, qəzetlərin də fanatları olmalıdır. Lakin təəssüf ki, bizim baş redaktorlarımız bu məsələyə əhəmiyyət vermədilər. Onların bəziləri də dövlətdən aldıqları maliyyəyə arxayın oldular".

Ə.Amaşov, eyni zamanda, KİVDF-nin Müşahidə Şurasının qəzetlərə maliyyə yardımının ayrılması barədə qərarının əhəmiyyətindən də bəhs edərək onun qəzet rəhbərləri arasında rəqabət mühiti yaradacağını qeyd edib: "Nəticə etibarilə bu gün birinci kateqoriyada olan nəşr sonrakı dövrdə tələbləri ödəmirsə, ikinciyə, daha sonra isə üçüncü kateqoriyaya düşə bilər. Tərsinə də ola bilər. Bu gün üçüncü kateqoriya ilə maliyyələşdirilən nəşr digər sahələrdən də vəsait cəlb etməklə tirajını, yayımını artıraraq ikinci və birinci kateqoriyaya qalxa bilər. Ona görə düşünürəm ki, maliyyənin bu cür bölünməsi nəşrlərin rəhbərlərində rəqabətə maraq yaradacaq. Əgər kim rəqabətdən dözümlü çıxacaqsa, dövlətdən vəsaiti də o alacaq.

Ümid edirəm ki, KİV rəhbərləri baş verənlərdən nəticə çıxaracaqlar. Onlar yalnız bu yardıma arxayın olmayacaq, yayım, abunə, reklamla bağlı konsepsiyalarını hazırlayacaqlar".

**Ceyhun Piriyev,**
***"İki sahil"***

# Komitə sədri SOCAR-ın Gürcüstan nümayəndəliyində



Aprelin 2-də Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov "SOCAR Energy Georgia" MMC-nin kollektivi ilə görüşüb.

"SOCAR Energy Georgia" MMC-nin baş direktoru Mahir Məmmədov iki qonşu dövlət arasında münasibətlərin sabitliyindən danışıb və Gürcüstanda yaşayan azərbaycanlılarla daim sıx əlaqə saxladıqlarını bildirib.

Komitə sədri SOCAR-ın Gürcüstan nümayəndəliyinin bu ölkədə yaşayan həmvətənlərimizi hər zaman dəstəklədiyini vurğulayıb. O, bu həssaslığa və dəstəyə görə "SOCAR Energy Georgia" MMC-nin kollektivinə təşəkkür plaketi təqdim edib.

# VYANA DANIŞIQLARI:
# ərazi bütövlüyünün bərpası ilkin şərt kimi



Martın 29-da Avstriyanın paytaxtı Vyanada Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında baş tutan danışıqlara ekspertlər və kütləvi informasiya vasitələri böyük maraq göstərib. Uzun müddət idi ki, tərəflər Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı müzakirə apara bilmirdilər. Bunun səbəbi Ermənistanda baş verən siyasi proseslər nəticəsində yaranmış iqtidar dəyişikliyi ilə bağlı idi. İndi isə proses yenidən canlanıb. Danışıqlarda ATƏT-in Minsk qrupunun həmsədrləri də iştirak ediblər. Müzakirələrdən sonra münaqişə tərəfləri və həmsədrlər müsbət məzmunda fikir bildiriblər. Həmsədrlər yaydıqları bəyanatda pozitiv məqamı açıq ifadə ediblər. Ermənistanın baş naziri də bütövlükdə danışıqların faydalı olduğunu bəyan edib. Bunlarla yanaşı, dəqiq və dolğun qiyməti Azərbaycan Prezidenti verib. Həmin məqamın işığında Vyana görüşünün geosiyasi analizi üzərində dayanmaq istərdik.

### Baş tutan görüş: format dəyişmir!

Ermənilər çox sevinirlər ki, nəhayət, N.Paşinyan Azərbaycan Prezidenti ilə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı rəsmi müzakirə aparmaq üçün görüşə bildi. Vyanaya qədər İlham Əliyevlə N.Paşinyan Düşənbədə və Davosda danışmışdılar. Ancaq ilk dəfə idi ki, Vyanada münaqişənin həlli ilə bağlı üç saatdan çox davam edən danışıq oldu. Bu, martın 29-da baş verdi.

Ermənilər nəyə sevinirlər? Hesab edirlər ki, N.Paşinyan İlham Əliyevlə müzakirə apara bilirsə, deməli, Azərbaycan tərəfi Ermənistanın yeni iqtidarının legitimliyini qəbul edir. Eyni zamanda, N.Paşinyanla da nəyisə müzakirə etməyin lazım olduğunu qəbul edir. Əslində, bunlar beynəlxalq hüquq normaları çərçivəsində olan hadisələrdir və Azərbaycan üçün heç bir problem yaratmır. Bu səbəbdən Ermənistan üçün daha vacib olanı Azərbaycanın hərbi yolla torpaqları azad etmək planını hələ işə salmamasıdır. Ermənistan mediasında yer alan informasiyalar ermənilərin məhz bu məqamdan çox çəkindiyini göstərir.

Reallıq isə bir qədər başqa müstəvidədir. Məsələ ondan ibarətdir ki, Azərbaycan heç zaman münaqişənin sülh yolu ilə həllinə etiraz etməyib, əksinə, həmişə bu xəttə sadiq qalıb. Lakin Ermənistan nə zaman təcavüzkar kimi davranmağa çalışıb, Azərbaycan Ordusu onun cavabını yaxşı verib. Son olaraq bu, 2016-cı ilin aprelində və daha sonra Naxçıvanda özünü göstərdi. Ermənistan hakimiyyəti anladı ki, güc dili ilə Azərbaycanla danışmaq onu fəlakətə aparır. Bu səbəbdən N.Paşinyanın İlham Əliyevlə müzakirə apara bilməsinə çox çalışırdılar.

Vyanada aparılan danışıqlar yuxarıda vurğulananlarla yanaşı, onu da göstərdi ki, Ermənistan danışıqlar prosesinə heç bir pozitiv impuls verə bilmir. Vyanada Ermənistanın Dağlıq Qarabağdakı separatçı-terrorçuları danışıqlar prosesinə qoşmaq cəhdinin fiasko ilə nəticələndiyi bir daha aydın oldu. N.Paşinyan məcburən Azərbaycan Prezidenti ilə danışıqlarla bağlı fikir mübadiləsi apardı. Və orada qondarma "DQR"dən nümayəndə yox idi. Bu məqam N.Paşinyanın "ortaq təhlükəsizlik şurası" planının da sabun köpüyü olduğunu nümayiş etdirdi. Çünki "Ermənistan və Artsaxın (Qarabağ - redaktorun qeydi) təhlükəsizlik şuralarının birgə toplantısı"ndan sonra N.Paşinyan ədabazlıqla demişdi ki, "Artsax ona öz adından danışıqlar aparmaq hüququnu verməndi". Vyanada isə N.Paşinyan, əslində, bütün erməni separatçılarının adından danışıb. Özü də o, humanitar əlaqələrdən, xalqlar arasında münasibətlərin yaranmasından bəhs edib. Ermənistanın baş naziri sevincək bəyan edib ki, görüş müsbət olub. Danışıqlarda irəliləyiş olmasa da, "müzakirələr başlayıb". Yəni Ermənistan hakimiyyəti müzakirə faktının özünün olmasına sevinir. Təbii ki, Azərbaycan Ordusunun gücünü görənlər bir daha onunla qarşılaşmamağa üstünlük verməlidir. Lakin məsələnin başqa tərəfləri də vardır.

Əlbəttə, münaqişənin danışıqlarla yolu ilə həlli Azərbaycana da sərf edir. Əsas odur ki, torpaqlar işğaldan azad edilsin. İşğalçı rədd olub getsin. Ermənilərdə olan türk-müsəlman fobiyası tarixin arxivinə atılsın. Ancaq Ermənistanın müdafiə naziri D.Tonoyanın Vaşinqtonda dediyi bir neçə cümlə bu ölkənin hələ də qeyri-konstruktiv mövqedə olduğunu təsdiq edir. Orada erməni nazir "yeni ərazilər uğrunda yeni müharibə" tezisini "kəşf etdiyini" utanmadan söyləyib. ABŞ özünü demokratiyanın beşiyi sayır, erməni isə məhz orada bəyan edir ki, Azərbaycanın yeni ərazilərini işğal etməyə hazırlaşırlar. Maraqlıdır ki, D.Tonoyanın beynəlxalq hüquqa tam zidd olan bu sərsəmləməsinə Vaşinqton reaksiya verməyib. Əgər belə bir fikri İranın və ya başqa bir müsəlman ölkəsinin müdafiə naziri söyləsəydi, Qərb necə reaksiya verərdi? Sualın cavabı İraq, Əfqanıstan, Suriya və digər müsəlman ölkələrində baş verənlərdədir.

Əslində, Azərbaycan üçün bu kimi söyləntilər boş bir şeydir. Ermənistan ordusu Azərbaycana qarşı bir addım atdığı andan darmadağın olacaq. Bunu ermənilər yaxşı bilir, buna görə də "yeni ərazi" iddiasının onlar üçün yeni faciələr gətirəcəyinə şübhə etmirlər. Ancaq Vyanada Ermənistanın baş nazirinin humanitar əlaqələrdən danışdığı bir vaxtda müdafiə nazirinin ABŞ-da müharibədən dəm vurması erməni siyasi düşüncəsinin anormallığından xəbər verir. Bu baxımdan N.Paşinyanın müsbət hal kimi qiymətləndirdiyi danışıqların necə sonuclanacağı aydın deyil.

### Həqiqət anı: Prezident danışıqları obyektiv və dəqiq qiymətləndirib

Əsas odur ki, Azərbaycan Prezidenti İlham Əliyevin danışıqlarla bağlı ifadə etdiyi dəqiq, obyektiv və lakonik fikirlərin fonunda ermənilərin söylədikləri çox sönük və qeyri-obyektiv görünür. Dövlət başçısı İlham Əliyev Rusiyanın TASS agentliyinə verdiyi müsahibədə vurğulayıb: "Bildiyiniz kimi, xarici işlər nazirləri bir neçə raund danışıqlar apardılar. Görüş ona görə mühümdür ki, məsələnin mahiyyəti ilə bağlı danışıqlar prosesinə yeni start verilib. Biz etimadı, ola bilsin ki, insanlar arasında təmaslar çərçivəsində möhkəmləndirməklə bağlı məsələləri müzakirə etdik. Bundan əvvəl ictimaiyyət nümayəndələri arasında təmaslar olub. Yəni, hələ bu barədə danışmaq tezdir, lakin humanitar məsələlərə gəldikdə, bu, nəzərdə tutulur. Çünki danışıqlar prosesi təbii ki, həm də humanitar aksiyalarla dəstəklənməlidir".

Deməli, hələlik danışıqlar prosesində etimad məsələsi önəm kəsb edir. Bu səbəbdən məsələnin mahiyyəti ilə bağlı danışıqlara başlanması müsbət haldır. Bu çərçivədə humanitar məsələlərin də müzakirəsi mümkündür, ancaq o barədə danışmaq hələ tezdir. Konkret vəziyyət bundan ibarətdir. Azərbaycan Prezidenti fikirlərini inkişaf etdirərək bəyan edib: "Lakin mən hesab edirəm, əsas odur ki, danışıqların formatı dəyişilməz qalıb. Danışıqlar uzun illər olduğu kimi, Ermənistan ilə Azərbaycan arasında aparılır. İkincisi, danışıqlar prosesinə yeni təkan verilib. Bu da vacibdir. Biz Minsk qrupunun həmsədrlərinin 9 mart tarixli bəyanatını, - siz yəqin ki, onunla tanışsınız, - çox müsbət qiymətləndirdik. Orada deyilir ki, danışıqlar formatının dəyişdirilməsi yalnız iki tərəfin razılığı ilə ola bilər. Azərbaycan tərəfi təbii ki, buna razılıq vermədi. Ona görə də biz prinsipcə substantiv danışıqların davam etdirilməli olduğu vəziyyətə qayıtdıq".

Aydındır ki, danışıqların səmərəli olması üçün onun hansı formatda aparılması çox vacibdir. Nə Azərbaycan tərəfi, nə də həmsədrlər N.Paşinyanın danışıqların formatını dəyişməklə bağlı irəli sürdüyü iddianı dəstəkləməyiblər. Bu o deməkdir ki, N.Paşinyan özü də istəmədən öncəki formatda danışıqlar masasına oturmalı olub. Bunu etməsəydi, Ermənistan ciddi zərbələr alacaqdı. Deməli, erməni KİV-lərinin hay-küyünə baxmayaraq, rəsmi İrəvan yeni heç nə təklif edə bilməyib və edə biləcəyi ehtimalı da çox aşağıdır. Danışıqların bu formatda davam etdirilməsi BMT Nizamnaməsini, Helsinki Yekun Aktını və Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində qəbul edilmiş çoxsaylı beynəlxalq sənədləri nəzərə almağı tələb edir. Bu isə avtomatik olaraq Azərbaycanın ərazi bütövlüyünün bərpasını şərt kimi qoyur. Dövlət başçısı İlham Əliyev həmin bağlılıqda ifadə edib: "Xarici işlər nazirlərinə tapşırıqlar verilib. Onlar çox güman ki, nəticəyə yönələn danışıqlar prosesini davam etdirmək üçün yaxın vaxtlarda görüşəcəklər. Bizim üçün birinci yerdə beynəlxalq səviyyədə tanınmış Azərbaycan ərazilərinin beynəlxalq hüquq, Helsinki Yekun Aktı və BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsi çərçivəsində işğaldan azad edilməsi məsələsi durur".

Olduqca konkret, dəqiq və aydın ifadə edilib - Ermənistan silahlı qüvvələri işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmalı, BMT-nin dörd qətnaməsi yerinə yetirilməlidir! Əlbəttə, bu şərtlərin ödənildiyi halda humanitar əlaqələrə heç kəs etiraz etməz. Yəni humanitar əlaqələr məqsəd deyil, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün lazım olan psixoloji məqamdır. Bu həqiqəti erməni ictimaiyyətinin də anlaması zamanı gəlib. Vyana danışıqlarının müsbət tərəfi məhz bu kimi məqamların artıq müzakirəyə çıxarılması ilə bağlıdır.

Newtimes.az

# Cənab İlham Əliyev hər bir azərbaycanlının Prezidentidir

**Xalqın etimadını qazanaraq sosial ədalət prinsiplərini şəxsi keyfiyyətləri, fəaliyyətinin əsas istiqamətləri kimi formalaşdıran ulu öndər Heydər Əliyev liderlik fəlsəfəsini dövlətçilik təcrübəsi ilə möhürləmişdir. Ölkəyə rəhbərliyinin hər iki dönəmində daxili siyasətin əsas aspektləri olan xalqın firavan yaşayışını təmin etmək, insan amilini fəallaşdırmaq üçün iqtisadiyyatın sürətli inkişafına nail olmaq kimi prinsipləri xarici siyasətin bütün dövlətlərlə qarşılıqlı etimad, iki və çoxtərəfli əməkdaşlıq etmək, sülh, əmin-amanlıq şəraitində yaşamaq, münasibətləri beynəlxalq hüquq normaları əsasında qurmaq tələbləri ilə uyğunlaşdıran ümummilli lider Heydər Əliyev Azərbaycanın inkişaf istiqamətlərini müəyyənləşdirmişdir.**





**Tağı Əhmədov,**
*YAP Yasamal rayon təşkilatının sədri*

2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə Azərbaycan xalqı bu siyasətin layiqli davamçısı kimi cənab İlham Əliyevi dəstəkləyərək 76,8 faiz səslə onu özünə yeni Prezident seçdi. İlk dəfə Prezident kimi andiçmə mərasimində "Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyev siyasətini davam etdirəcəyəm" söyləyən Prezident İlham Əliyev onu da bildirdi ki, Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Eyni münasibətini dövlət başçısı kimi mətbuata ilk müsahibəsində də qeyd edən cənab İlham Əliyevin "Mən məsuliyyətə də, çətinliklərə də hazıram. Əminəm ki, Azərbaycan xalqının dəstəyi ilə qarşıda duran bütün vəzifələri ləyaqətlə yerinə yetirəcəyəm. Demişəm, Azərbaycan xalqı görəcək ki, mən Azərbaycan üçün, xalqımız üçün yaxşı Prezident olacağam" proqram xarakterli sözləri gələcək fəaliyyəti üçün qətiyyət ifadəsi, verdiyi vədi idi.

Son on beş il ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artmış, qeyri-neft ixracı 4,1 dəfə çoxalmışdır. Azərbaycanın valyuta ehtiyatları 1,8 milyard dollardan (2004) 46 milyard dollara (2018) çatdırılmışdır. 2003-2018-ci illərdə ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulmuşdur. Müstəqillik dövründə Azərbaycana yatırılan sərmayənin 93 faizini təşkil edən həmin investisiyanın təxminən yarısı daxili mənbələrin payına düşür.

Azərbaycanda nəhəng transmilli energetika və nəqliyyat layihələri həyata keçirilmiş, "Üç dəniz əfsanəsi" olan, Xəzər və Aralıq dənizlərini birləşdirən, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin ardıcılları olan, dünyanın enerji xəritəsini dəyişən Cənub Qaz Dəhlizi, TANAP kimi qlobal əhəmiyyətli layihələr reallaşmışdır. Ötən il istifadəyə verilən Cənub Qaz Dəhlizi, TANAP, inşası sürətləndirilən TAP, eyni zamanda, əməkdaşlıq formatı kimi dəyərləndirilir.

Cənab İlham Əliyevin Prezidentliyi dövründə Azərbaycan dünyada sayı məhdud olan kosmik ölkələr sırasına qoşulmuşdur. "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti yaradılmış, Azərbaycanın ilk telekommunikasiya peyki "Azerspace-1"in, Yer səthini müşahidə edən "Azersky" peykinin, telekommunikasiya peyki "Azerspace-2"nin orbitə çıxarılması ölkə iqtisadiyyatının maliyyə imkanlarının möhkəmlənməsi hesabına mümkün olmuşdur.

Cənab İlham Əliyevin vurğuladığı kimi, Birinci Avropa, İslam Həmrəyliyi Oyunlarının, Formula-1 yarışlarının Azərbaycanda keçirilməsi ölkəmizə maraqdan irəli gəlir. Asiya ilə Avropanı birləşdirən Azərbaycanda keçirilən beynəlxalq forumlar, dialoqlar ölkəmizi sivilizasiyalararası mərkəzə, humanitar platfomaya çevirib. Azərbaycan Silahlı Qüvvələrinin dünyanın ən güclü orduları sırasında yer alması, aprel döyüşlərində qazanılan uğurlar, Lələtəpə, Günnüt əməliyyatları ölkənin müdafiə qüdrətinin ifadəsi olmaqla Ali Baş Komandan İlham Əliyevin liderlik qətiyyətinin, siyasi iradəsinin ifadəsidir.

Son 15 ildə ölkənin sosial-mədəni və təsərrüfat infrastrukturu tamamilə yenilənmişdir. Bu dövrdə 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilmiş, yaxud əsaslı təmir edilmiş, mədəni-məişət obyektləri istifadəyə verilmiş, 15 min kilometr yol çəkilmiş, 443 körpü inşa olunmuşdur. Bakıda 4 yeni metro stansiyası istifadəyə verilmiş, bir neçə stansiyada yenidənqurma işləri aparılmışdır.

Azərbaycanda 7 hava limanı tamamilə yenidən qurularaq istifadəyə verilmişdir. Heydər Əliyev Beynəlxalq Aeroportu dünyanın "5 ulduz"lu 9 əsas hava limanı sırasında yer alır. Azərbaycan brendi olan "ASAN xidmət", multikulturalizm və tolerantlıq təcrübəsi BMT tərəfindən humanizm nümunəsi kimi təbliğ olunur.

Respublikaya rəhbərlik etdiyi ilk illərdə əsas tezis kimi səsləndirdiyi "Neft strategiyasının tərkib hissəsi ondan ibarətdir ki, neftdən əldə olunan gəlirlər Azərbaycan xalqına səmərəli şəkildə xidmət etsin" sözləri ilə "Azərbaycanın dövlət siyasətinin əsasında insan amili dayanır" tezisini təkmilləşdirən cənab İlham Əliyevin apardığı sosial islahatlar nəticəsində ölkə vətəndaşlarının rifahı daha da yüksəlmiş, ölkənin iqtisadi potensialı əhalinin sosial müdafiəsinin həllinə yönəldilmişdir.

Ötən illərdə ölkə vətəndaşlarına göstərilən diqqət və qayğının nümunəsi olan, Prezident İlham Əliyevin təşəbbüsü ilə əhalinin sosial müdafiəsini gücləndirmək istiqamətində atılan addımları xatırlayaq.

Vətəndaşların təbii qazdan, içməli su və kanalizasiya xidmətlərindən istifadəyə görə əvvəlki illərdə yaranmış borclarının tam silinməsi, sovet dövründən qalmış əmanətlərə görə 1 milyard manat kompensasiya ayrılması, təbii fəlakətlərdən zərər çəkən insanlara dövlət tərəfindən yardımların göstərilməsi insan amilinə qayğı və diqqətin təzahürü idi. Oğuz-Qəbələ-Bakı kəmərinin çəkilişi ilə paytaxt əhalisinin içməli suya tələbatının ödənilməsi nə qədər sevinc doğurdusa, Prezident İlham Əliyevin imzaladığı "Əhalinin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadə üzrə yaranmış borcların silinməsi" haqqında Sərəncamı aztəminatlı ailələrə ikiqat sevinc bəxş etdi.

Bakının Nizami rayonundakı ticarət mərkəzində ("Diqlas") baş vermiş yanğınla əlaqədar keçirilən müşavirədə aidiyyəti orqanlara tapşırıqlarını verən, zərər çəkən insanlara dövlət dəstəyinin göstəriləcəyini bildirən cənab İlham Əliyev bunun üçün maliyyə vəsaitlərinin ayrılması barədə Sərəncam imzaladı. Azərbaycanda sığorta sahəsində boşluqların olduğunu diqqətə çatdırdı. Yanğının fəsadlarının aradan qaldırılması üçün ilk mərhələdə 3 milyon manat vəsaitin ayrılması dövlətin sahibkarına sahib çıxmasının təzahürüdür. Bununla bir daha sübut olundu ki, Prezident İlham Əliyev hər bir vətəndaşın yanındadır.

2019-cu ilin ilk aylarından başladığı sosial islahatları geniş miqyasda həyata keçirən dövlət başçımız iqtisadi müstəqilliyimiz sayəsində əldə olunan nailiyyətlərdə hər bir vətəndaşın xüsusi əməyinin olduğunu bildirir və qiymətləndirir. Prezident İlham Əliyev şəhid ailələri, müharibə veteranları və əlillərə daim xüsusi qayğı ilə yanaşır. Ötən ilin aprel ayında keçirilən prezident seçkilərindən sonra cənab İlham Əliyevin imzaladığı ilk Fərmana əsasən şəhidlərin vərəsələrinə 11 min manat məbləğində ödənişlər verildi. Hazırda 12 mindən çox şəhid ailəsi bu ödənişlərlə təmin olunub. Növbəti Fərmanla şəhid ailələrinə verilən müavinət 242 manatdan 300 manata, Əfqanıstanda həlak olanların ailələri üçün nəzərdə tutulan müavinət 220 min manatdan 300 manata qaldırıldı. Keçən il şəhid ailələrinə 626 mənzil verilmişdir. Bu il isə daha 800 şəhid ailəsi mənzillə təmin olunacaq. Şəhid ailələri və müharibə əlilləri dövlət hesabına 6 mindən çox minik maşını ilə təmin olunmuşdur. Bu məqsədlə Prezidentin ehtiyat fondundan 20 milyon manat vəsait ayrılmışdır. İşğaldan azad olunan Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi qısa müddət ərzində bərpa edilmiş, orada 150 evdən ibarət qəsəbə tikilmiş və köçkünlər öz doğma yurdlarına qayıtmışlar. Eyni zamanda, işğaldan azad olunmuş Tərtər rayonunun Şıxarx qəsəbəsində 1170 ailə üçün yeni şəhərcik salınmışdır.

Məcburi köçkünlərlə bağlı sosial islahatlar da davam etdirilir. Əgər keçən il 5900 köçkün ailəsi üçün mənzillər, evlər tikilmişdirsə, bu il Bakıda, Sumqayıt şəhərində həyata keçirilən tikinti proqramına əsasən 7 minə yaxın köçkün ailəsi yeni mənzillərlə, evlərlə təmin ediləcək.

Əhali tərəfindən yüksək dəyərləndirilən islahatların məntiqi nəticəsi budur ki, dövlət həmişə vətəndaşın yanındadır. Baş verən zəlzələlər, daşqınlar nəticəsində əhaliyə vurulan ziyanın dövlət tərəfindən ödənilməsi, sosial mənzillərin tikilməsi, xidmət obyektlərinin inşası dövlətin vətəndaşına göstərdiyi qayğıdır. Ötən illərdə Balakən və Zaqatalada baş verən zəlzələlər zamanı vətəndaşlara dəyən ziyanın, Kür çayının daşması nəticəsində sahilyanı kəndlərdə yaranan problemlərin dövlətin öz gücü hesabına aradan qaldırılması dünyada alternativi olmayan təcrübədir. O zaman təbii fəlakətlərdən zərər çəkənlər üçün 3 mindən artıq yeni, daha müasir evlər tikildi, sosial obyektlər inşa olundu. Eyni diqqət Şamaxıda, Ağsuda, İsmayıllıda baş verən zəlzələdən zərər çəkənlərə də göstərildi. Zəlzələnin yaratdğı fəsadlarla yerindəcə tanış olub, insanlara lazımi kömək göstərilməsi üçün vətəndaş təkliflərini əks etdirən tövsiyələr verən Prezident İlham Əliyev növbəti dəfə zəlzələ bölgəsində aparılan işlərin gedişi ilə maraqlanmışdır.

Son günlərdə əmək haqqı və pensiyaların, tələbə təqaüdlərinin, məcburi köçkün və qaçqınlar, aztəminatlı ailələr üçün nəzərdə tutulan güzəşt və müavinətlərin artırılması, problemli kreditlərlə, çoxmənzilli binaların qeydiyyata alınması ilə bağlı göstərişlərin verilməsi ölkə vətəndaşlarının sosial müdafiəsinin təminatı istiqamətində aparılan siyasətin ən bariz nümunəsidir. Məntiqi nəticə isə budur: Ölkə iqtisadiyyatının inkişafı sosial islahatların tətbiqini sürətləndirir, əhalinin həyat səviyyəsi yüksəlir. "Beləliklə, iqtisadi göstəricilərimiz elədir ki, dünyanın istənilən ölkəsi bu göstəriciləri böyük qəhrəmanlıq kimi qəbul edə bilər, bizim üçün isə bu, adi haldır. Çünki bizim iqtisadi siyasətimiz düşünülmüş siyasətdir. Ümumiyyətlə, bizim siyasətimiz Azərbaycan xalqının maraqlarını tam əks etdirir, ona tam uyğundur. Məhz buna görə Azərbaycan xalqı bizim siyasətimizi dəstəkləyir" söyləyən cənab İlham Əliyevin davam etdirdiyi islahatların analoqunun olmaması ölkəmizə beynəlxalq təşkilatların hesabatlarında verilən yüksək qiymət, respublikamızın adının yuxarı pillələrdə yer almasıdır.

Dövlət başçımızın sərəncamları əsasında 2019-cu ilin əvvəllərindən başlayan islahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə daha qüdrətli ölkəyə çevirmək, mövcud olan problemləri aradan qaldırmaq, vətəndaşları narahat edən çətinlikləri tamamilə gündəlikdən çıxarmaq, insanların rifah halını yaxşılaşdırmaqdır. Zamanın çağırışı da belədir ki, daha güclü, qüdrətli dövlət qurmaq üçün aparılan məqsədyönlü, tutumlu siyasət insan amilinə, ölkəmizin beynəlxalq mövqelərinin möhkəmlənməsinə, regional əməkdaşlıq təşəbbüslərinin dəstəklənməsinə xidmət etməlidir. Bu il 600 min nəfəri əhatə edən minimum əməkhaqqı 130 manatdan 180 manata qaldırıldı. Dövlət başçımız açıqlamasında bildirdi ki, ölkədə əmək haqqı və pensiya siyasəti daim gündəlikdə dayanacaq və bu proses davamlı olacaq.

Minimum pensiyalarla bağlı da ciddi qərar qəbul edildi. Minimum pensiyaların məbləği 116 manatdan 160 manata qaldırıldı ki, respublikamız bu göstərici üzrə MDB məkanında ikinci yerdədir. Uzun illər ərzində müzakirə olunsa da, həlli yubanan, vətəndaşları narahat edən problemlərdən olan rəsmi olaraq qəbul edilməmiş çoxmənzilli binaların sənədləşməsi məsələsi də həllini tapdı. Dövlət başçımızın imzaladığı Fərman əsasında müvafiq dövlət orqanları bütün sənədləşmə işlərini apararaq məsələnin həllini təmin edəcəklər. Belə ki, dörd yüz çoxmənzilli binada yaşayan 60 minə yaxın ailəni sevindirmək mümkün olacaq. Növbəti diqqət və qayğı təqribən 100 min tələbəni əhatə edən təqaüdlərin artırılması oldu.

Son günlərdə əhalini daha çox sevindirən isə neçə müddətdir müzakirə olunan problemli kreditlərlə bağlı nəzərdə tutulan məsələnin həlli istiqamətində atılan addım oldu. "Bu o qədər də sadə məsələ deyil. Biz bu məsələni həll etməklə əsas vəzifəni vətəndaşların rifah halının yaxşılaşmasında, onların maliyyə yükünün azaldılmasında görürük. Bu, ilk növbədə, ciddi sosial təşəbbüs kimi qəbul edilməlidir" söyləyən dövlət başçımız bu addımı ilə bir daha vətəndaşın yanında olduğunu təsdiqlədi.

Prezident İlham Əliyevin mədəniyyət və incəsənət xadimləri, Bakı şəhərinin sakinləri ilə görüşlərində bildirdiyi kimi, iqtisadi uğurları artan, maliyyə imkanları möhkəmlənən ölkəmizdə əhalinin maddi rifah halının yüksəlməsi naminə hazırlanan "sosial paket"də daha ciddi islahatlar nəzərdə tutulur. Bu cür önəmli islahatların əsasında isə güclü siyasi iradə, insana qayğı amili dayanır. "Əminəm ki, 2019-cu il bütövlükdə ölkəmiz üçün uğurlu il olacaqdır. Azərbaycan 2019-cu ildə uğurlar və inkişaf yolu ilə gedəcəkdir" söyləyən cənab İlham Əliyev həmişə olduğu kimi, yenə də vədinə sadiq qalacaq, hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu əməli, real fəaliyyəti ilə təsdiqləyəcək.

# YAP Xəzər rayon təşkilatı Gənclər Birliyinin yeni sədri seçilib





**Aprelin 3-də Yeni Azərbaycan Partiyası (YAP) Xəzər rayon təşkilatı Gənclər Birliyinin VII hesabat-seçki konfransı keçirilib. YAP Xəzər rayon təşkilatının sədri, partiyanın Siyasi Şurasının üzvü Namiq Əhmədov rayon təşkilatının bir çox uğurlara imza atdığını bildirib. O, YAP Xəzər rayon təşkilatının ötən illər ərzində gördüyü işlərdən, həyata keçirdiyi tədbirlərdən danışıb. N.Əhmədov təşkilatın Gənclər Birliyinin fəaliyyəti haqqında fikirlərini bildirib.**

YAP Xəzər rayon təşkilatı Gənclər Birliyinin üzvü Sadiq Əliyev Azərbaycanda uğurlu gənclər siyasətinin həyata keçirildiyini bildirib. Onun sözlərinə görə, Prezident İlham Əliyevin siyasətində gənclərlə iş mühüm yer tutur. Yeni Azərbaycan Partiyasının da gənclərin öz bilik və bacarıqlarını təqdim etmək üçün bütün imkanlar yaratdığını deyən S.Əliyev YAP Xəzər rayon təşkilatının üzvü olan gənclərin də ictimai-siyasi proseslərdə fəal iştirak etdiyini diqqətə çatdırıb.

YAP Xəzər rayon təşkilatı Gənclər Birliyi İdarə Heyətinin üzvü Ülkər Qəhrəmanlı da gənclərin ictimai-siyasi proseslərdə iştirakı haqqında fikirlərini bildirib.

YAP Gənclər Birliyinin sədri, partiyanın Siyasi Şurasının üzvü Seymur Orucov çıxış edərək Azərbaycanda uğurlu gənclər siyasətinin həyata keçirildiyini deyib. Onun fikrincə, Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, bu gün ölkəmizdə yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşıb: "Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayırlar. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsi Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini artırıb. Gənclərimiz iştirak etdikləri beynəlxalq olimpiadalarda və idman yarışlarında yeni-yeni qələbələrlə ölkəmizin şərəfini ucaldıblar. Bu baxımdan, YAP sıralarında birləşən gənclər də ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edirlər".

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini Rauf Əliyev isə bildirib ki, gənclərimizə göstərilən qayğı ildən-ilə artmaqdadır. Deputat hazırda Xəzər rayonunda gənclərlə fəal iş qurulduğunu, müxtəlif tədbirlərin həyata keçirildiyini, gənclərin ictimai-siyasi proseslərdə də aktiv olduqlarını diqqətə çatdırıb.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı da çıxışında gənclərə yüksək bilik qazanmağı tövsiyə edib. O qeyd edib ki, Azərbaycan dövləti bunun üçün bütün imkanları yaradıb.

Xəzər Rayon İcra Hakimiyyətinin başçısı Elşən Salahov Azərbaycanda dövlət gənclər siyasətinin əsasının ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu, bu siyasəti hazırda Prezident İlham Əliyevin uğurla davam etdirdiyini bildirib. O, gənclərlə bağlı qəbul edilən müxtəlif Dövlət proqramlarının əhəmiyyətini vurğulayıb. Xəzər rayonunda həyata keçirilən tədbirlərdən danışan E.Salahov rayon gənclərinin quruculuq prosesində fəal iştirak etdiyini diqqətə çatdırıb. O, YAP Xəzər rayon təşkilatı Gənclər Birliyinə fəaliyyətində uğurlar arzulayıb, hər zaman gəncləri təşəbbüskar olmağa çağırıb.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə partiyanın yaranma tarixindən danışıb. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyası davamlı şəkildə əhəmiyyətli uğurlara imza atmaqla cəmiyyətdə nüfuzunu, siyasi çəkisini daha da artırıb. Yarandığı gündən partiya siyasi mübarizələrlə zəngin bir yol keçib və artıq bu gün partiya növbəti zəfərlərə, qələbələrə doğru inamla irəliləməkdədir.

E.İbrahimov bildirib ki, YAP ölkədə keçirilən bütün seçkilərdə uğur qazanmaqla xalqın partiyası olduğunu təsdiqləyir. Əlbəttə ki, əldə edilən hər bir nailiyyətin arxasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ideyaları dayanır. Bu gün ulu öndər Heydər Əliyevin layiqli davamçısı Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti cənab İlham Əliyevin yorulmaz və qətiyyətli siyasət yürütməsi nəticəsində Azərbaycan dünyanın ən aparıcı dövlətləri sırasında yer almaqdadır.

Konfransda təşkilati məsələlərə baxılıb. YAP Xəzər rayon təşkilatı Gənclər Birliyinin 15 nəfərdən ibarət İdarə Heyəti müəyyənləşib. Sadiq Əliyev YAP Xəzər rayon təşkilatı Gənclər Birliyinin sədri, Nazlı Tahirova isə sədr müavini seçilib.

**Zamin Məmmədov,**
***"İki sahil"***

---

# YAP üzvləri Cocuq Mərcanlıda

**YAP Səbail rayon təşkilatının üzvləri Cocuq Mərcanlı kəndinə səfər ediblər. Səfərdə Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyevin rəhbərliyi ilə rayon ictimaiyyətinin nümayəndələri, partiya fəalları və gənclərdən ibarət 100 nəfər iştirak edib.**





İştirakçılar Horadiz şəhərində "Aprel şəhidlərinə xatirə" abidəsini ziyarət edərək, önünə tər çiçəklər qoyub, respublikamızın ərazi bütövlüyü uğrunda həlak olan Vətən övladlarının xatirəsini ehtiramla yad ediblər. Sonra Cocuq Mərcanlıda yol kənarına çinar ağacları əkilib. Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbinin kollektivi və sakinlərlə görüş keçirilib. Müəllim və şagirdlər qarşısında çıxış edən Şəmsəddin Hacıyev bildirib ki, qurumun üzvləri artıq ikinci ildir Cocuq Mərcanlıya səfər edir: "Biz bu səfərlərlə bildirmək istəyirik ki, siz tək deyilsiniz. Bütün Azərbaycan, o cümlədən Səbail rayonunun ziyalıları, YAP üzvləri sizinlədir".




YAP Səbail rayon təşkilatının sədri deyib ki, buraya hər gələndə bir yeniliyin şahidi oluruq: "Artıq burada təkcə evlər deyil, eləcə də istehsal müəssisələri yaradılır, yeni iş yerləri açılır. Bu, ölkədə aparılan düşünülmüş siyasətin nəticəsidir. İşğaldan azad ediləcək bütün torpaqlarımızda belə gözəl kəndlər, şəhərlər salınacaq".

Ş.Hacıyev Aprel döyüşlərindən də söz açıb: "Azərbaycan Ordusu 2016-cı ilin aprelində düşmənin cəbhədəki təxribatlarının qarşısını alıb və əks hücuma keçərək, mühüm strateji yüksəklikləri işğaldan azad edib. Aprel zəfəri Şuşaya, Xankəndinə qayıdışın, böyük qələbənin başlanğıcıdır. Bu döyüşlərə qədər ermənilər özləri barədə belə bir mif yaratmışdılar ki, onların ordusu güclüdür, məğlubedilməzdir. Ancaq Azərbaycan Ordusu öz qələbəsi ilə ermənilərin yaratdıqları bu mifi darmadağın etdi".

Sonra nümayəndə heyəti ön xəttə xidmət edən əsgər və zabitlərin xidmət və məişət şəraiti ilə tanış olub, onlara televizor hədiyyə ediblər. YAP Səbail rayon təşkilatının sədri Vətənimizin keşiyində dayanan əsgərlərə çətin və şərəfli xidmətlərində uğurlar diləyib, onlara qələbə sevinci arzulayıb. Əsgərlər "Qarabağ" mahnısını oxuyublar. Qonaqlar Cocuq Mərcanlıda tikilən Şuşa məscidinin bənzəri olan məsciddə də olub, burada şəhidlərin ruhuna dua oxuyublar. Sonra N saylı hərbi hissəyə gələrək əsgər və zabitlərlə birgə nahar ediblər.

Səfər çərçivəsində Füzuli rayonunun Alıxanlı kəndində Ermənistan silahlı qüvvələrinin atəşi nəticəsində öldürülən 2 yaşlı Zəhra və nənəsi Sahibə Allahverdiyevanın xatirəsinə hərbi birlik komandanlığının təşəbbüsü ilə yaradılan abidə də ziyarət olunub. Zəhranın valideynlərinə baş çəkən nümayəndə heyəti onlara maddi yardım ediblər.

**Cavid Əkbərov,**
***"İki sahil"***

*Vüqar Rəhimzadə:*

## Aprel döyüşləri bir daha nümayiş etdirdi ki, Azərbaycan heç vaxt işğalla barışmayacaq



Müstəqil Azərbaycanın Aprel zəfərindən artıq 3 il ötür. Məhz təqvimin bu günü, bu qələbə müasir tariximizin şanlı səhifələrindən biridir. Güclü ordumuz, qorxmaz Azərbaycan əsgəri düşmənin neçə ildir formalaşdırdığı mifi dağıdaraq işğal altında olan torpaqlarımızın bir hissəsini azad etdi, strateji əhəmiyyətə malik yüksəklikləri ələ keçirdi, bununla da nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi. Ordumuz sübut etdi ki, əgər sülh danışıqları bir nəticə verməzsə, Azərbaycan işğal altında olan torpaqlarını hərb yolu ilə geri qaytara bilər. Aprelin 2-də Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsində olan Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev çıxışı zamanı bəyan edib ki, Aprel döyüşləri tariximizin şanlı səhifəsidir. "Aprel döyüşləri bizim böyük tarixi qələbəmizdir, müasir tariximizdə ən uğurlu hərbi əməliyyatlardan biridir... Aprel döyüşləri bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusu bu gün ən yüksək keyfiyyətlərə malikdir və istənilən anda istənilən vəzifəni icra edə bilər. Ermənistanın yaratdığı mif tamamilə darmadağın edildi", - deyən Ali Baş Komandan Aprel döyüşlərinin əhəmiyyətini vurğulamaqla yanaşı, ordumuzun gücünü də ortaya qoyub.

**Bu fikirləri AZƏRTAC-a açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.**

V.Rəhimzadə ordu quruculuğunda əldə olunan uğurlara toxunaraq bildirib ki, ordumuz uğurla inkişaf edir, maddi-texniki bazası yenilənir, şəxsi heyətin peşəkarlıq qabiliyyəti, əhval-ruhiyyəsi günbəgün artır. Bu gün Azərbaycan Ordusu ən müasir texnika, silah və sursatla təmin edilir. Bu amil isə onu deməyə əsas verir ki, Azərbaycan Ordusu dünya miqyasında ən güclü ordular sırasındadır. Bu amil isə Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəmizin üstünlüyünü təmin edən əsas faktorlardan biri kimi çıxış edir.

"İki sahil" qəzetinin baş redaktoru vurğulayıb ki, Aprel döyüşləri bir daha nümayiş etdirdi ki, Azərbaycan heç vaxt işğalla barışmayacaq, ölkəmizin ərazi bütövlüyü qeyd-şərtsiz bərpa ediləcək. O deyib: "Sözsüz ki, bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ölkəmizin mövqeyində heç bir dəyişiklik yoxdur. Torpaqlarımız işğaldan azad edilməli, qaçqın və məcburi köçkünlər öz doğma yurd-yuvalarına qayıtmalı, regionda sülh və sabitlik bərqərar edilməlidir. Azərbaycanın ATƏT-in Minsk qrupunun həmsədr dövlətləri, eləcə də beynəlxalq birlik qarşısında tələbi budur. Çünki Dağlıq Qarabağ Azərbaycanın əzəli, tarixi torpağıdır".

V.Rəhimzadə bildirib ki, Aprel döyüşləri nəticəsində düşmənin nəzarətindən çıxan Cocuq Mərcanlı kəndi bu gün sürətlə inkişaf edir. Artıq burada yeni həyat başlayıb. Qısa zaman kəsiyində kənddə 150 ev, məktəb, uşaq bağçası, məscid tikilib, yeni iş yerləri yaradılıb. Şübhəsiz ki, güclü ordumuz işğal altındakı bütün torpaqları azad edəcək və Cocuq Mərcanlı kimi, bütün kənd və qəsəbələr yenidən qurulacaq.

# Azərbaycan dövləti vətəndaşların problemlərinin həllini öz üzərinə götürüb

"Süni qiymət artımının qarşısının alınması üçün bazarlara ciddi şəkildə nəzarət etmək lazımdır. Bilirsiniz ki, qiyməti qaldıran dövlət yox, ayrı-ayrı ticarət müəssisələridir. Bunlar da xüsusi mülkiyyətdir. Onlar sosial sferada artımları eşidən kimi daha çox qazanc əldə etməyə çalışırlar. Pensiyaçının pensiyası artıbsa şəkərin, soğanın qiymətinə hansısa əlavələr etmək ancaq möhtəkirlərin, süni şəkildə qiymət bahalaşdıranların fəaliyyətidir".

**Bu fikirləri Yeni Azərbaycan Partiyasının (YAP) İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov "Qafqazinfo"ya müsahibəsində bildirib.** Deputat xatırladıb ki, Azərbaycanda Qida Təhlükəsizliyi Agentliyi strukturu yaradılıb. O hesab edir ki, həmin quruma bu məsələlərlə bağlı əlavə səlahiyyətlər verilməlidir. Həmçinin inhisarçılığa qarşı mübarizə aparan digər strukturlar da bu prosesə qoşulmalıdır: "Rayon və kənd yerlərində yaşayan insanlar bilirlər ki, mart ayı bir fəslin bitməsi, digər fəslin başlamasıdır. Bu zaman köhnə məhsul başa çatmaq üzrədir, yenisi isə hələ yoxdur. Yəni yeni məhsul çıxana kimi proses, ola bilsin ki, belə olsun. Təbii ki, burada süni şəkildə vəziyyətdən istifadə etmək istəyənlər də var. Hesab edirəm ki, bu cür məsələlərlə bağlı proqnozlaşdırma olmalıdır. Kənd Təsərrüfatı Nazirliyi ölkə üzrə hansı məhsullara tələbatın nə qədər olmasını müəyyənləşdirməlidir".



Azərbaycan dövlətinin vətəndaşların problemlərinin həllini öz üzərinə götürdüyünü vurğulayan deputat deyib ki, bu prosesdə vətəndaşlar, o cümlədən cəmiyyətimiz də fəallıq göstərməlidir. Sığorta sisteminin inkişafının vacibliyini bildirən S.Novruzov qeyd edib ki, deputat seçildiyi Naxçıvan Muxtar Respublikasında bütün dəyəri olan əmlaklar sığortalanıb. Bu proses davam edir. "Orada da bəzən deyinmələr olur ki, niyə sığorta haqqı ödəməliyəm?! Sonradan effektini görəndə bunu başa düşürlər. Cənab Prezident də çıxışında dedi ki, sığorta sistemində yeniliklər olmalıdır. Vətəndaşlarımız da çalışmalıdırlar ki, bu sahədə köməklik etsinlər. Hər biri öz evini, nəqliyyat vasitəsini sığortalatdırsın. "Diqlas" ticarət mərkəzində malları yanan sahibkarların və icarədarların çıxışlarına qulaq asıram. Biri deyir ki, malının sayını bilmir. Necə sayını bilmirsən? Bir qələmin itsə, göydə bilirsən ki, o itib. Bu cür yanaşma düzgün deyil. Böyük bir restoranın sahibi oradakı pomidor-xiyarın sayını əzbər bilir. Sən bilmirsən ki, satdığın mal nə qədərdir? Axı gündəlik hesabat aparırsan. Araşdırmaq üçün yarım saat vaxt lazımdır ki, səmimi şəkildə orada olan əmlakları ilə bağlı komissiyaya məlumat versinlər. Biri deyir ki, 2 milyon malım var. Sual olunur, bu qədər mal haradan gəlib? Bunun gömrüyü, vergisi var. Dövlət bu qədər addım atıb yükü öz üzərinə götürüb. Vətəndaş, sahibkar da gərək buna qarşılıqlı cavab versin".

Siyavuş Novruzov qeyd edib ki, Azərbaycan nağdsız ödəniş sisteminə keçib. Ona görə mütləq ticarət müəssisəsi kassa aparatından istifadə etməlidir. "Görürük ki, kassa aparatından istifadə olunmur. Burada vətəndaşın da məsuliyyətini düşünməliyik. O bilməlidir ki, verdiyi puldan vergi veriləcək, o da sonradan vətəndaşa qayıdır. Ona görə də biz buna göz yummamalıyıq. Bəzən görürsən ki, qəbzdə aldığı qiymətdən başqa qiymət yazılır. Qanunsuz halları görəndə sosial şəbəkələrdə yaza bilərlər, qurumların qaynar xəttinə də müraciət edə bilərlər. Biz bunların heç birini etmirik. Gərək birinci addımı özümüz ataq", - deyə komitə sədri bildirib.

31 Mart soyqırımının beynəlxalq miqyasda tanıdılması istiqamətində görülən işlərlə bağlı suala cavabında S.Novruzov bu sahədə çəkiləcək filmlərin prosesə müsbət təsir göstərəcəyini söyləyib. Deputat deyib ki, bu filmlər yüksək texnologiya əsasında çəkilməlidir.

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşünün əhəmiyyətini qeyd edən S.Novruzov sözlərinə görə, ulu öndərimiz Heydər Əliyev, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mədəniyyət xadimləri ilə mütəmadi olaraq görüşüblər. Onların həm şəxsi, həm də mədəniyyət sahəsində olan məsələləri həll edilir: "Bir çox ölkələrdə yaradıcı təşkilatlar, ümumiyyətlə, özəl təşkilatlardır. Azərbaycanda isə bu təşkilatlar dövlət büdcəsindən maliyyələşir. Dövlət buna da diqqət və qayğı göstərir. Bu lazımdır. Yeni nəslin də inkişafına yol açır. Gənc yazıçılara əlavə təqaüd verilir. Rəssamlara, bəstəkarlara və başqalarına da dəstək göstərilir. Özəl sektor da buna diqqət göstərməlidir. Onu da qeyd edə bilərəm ki, son illər ərzində çəkilmiş "Əbədi ezamiyyət" və "Son iclas", "Dolu" filmləri tariximizdəki faktları dünyaya təqdim etmək üçün yaxşı filmlərdir".

Ötən il Azərbaycanda prezident seçkilərinin yüksək səviyyədə keçirildiyini xatırladan deputat deyib ki, YAP-ın namizədinin təbliğatında iştirak edən şəxslər seçicilərlə 1000-dən artıq görüş keçiriblər: "Bu görüşlərdə toplanan bütün məlumatlar, təkliflər, şikayətlər cəmləşdiriləcək cənab Prezidentə təqdim olundu. Dövlət büdcəsi də təsdiq olunanda bu layihələrin əksəriyyəti onun tərkibinə daxil edildi. Yanvar ayından bu tərəfə isə dövlət büdcəsinin icrası başlanıldı. Artıq radikal müxalifət gördü ki, nədən yapışmaq istəyirlərsə, həll olunub. Bu yaxınlarda aprelin 6-da mitinq keçirmək istəyirdilər. Bundan qabaq Əli Kərimli çıxış edərək "Diqlas"da zərər çəkən sahibkarları mitinqə dəvət etdi. Deyir ki, gəlin iştirak edin, sizin haqqınız müdafiə olunacaq. Bu, insanların problemlərindən sui-istifadə etmək cəhdidir. Bunlar iddia edirlər ki, guya 19 yanvarda keçirilən mitinqdə etdikləri çıxışlara görə hökumət sosial layihələrlə bağlı qərar verdi. Əslində isə buna hazırlıq 1 il qabaqdan gedirdi. Mitinqlə heç nəyi həll etmək mümkün deyil. Bunlar 1989 və 1990-cı illərin düşüncəsində qalıblar. O cümlədən Azərbaycanda heç bir siyasi məhbus yoxdur. Ölkədə bu və ya digər şəkildə cinayət törətmiş şəxslər var. Elə adamlar var ki, bu gün Avropadadırlar. Onların bizdə ərizələri var. Biz indi o ərizələri açıb göstərmirik, çünki düzgün çıxmaz. Əfv müraciətlərində yazıb ki, əgər əfv olunsa, ölənə qədər Prezidentə sədaqətlə xidmət edəcək. Bizdə ərizəsi var.

Qohumları, valideynləri cənab Prezidentə onlarla müraciət ediblər ki, məhkumun səhhəti ağırlaşıb, onu əfv etsin. Yaxud tabeliyində uşaq var. Əfv Komissiyasına 1000-dən artıq müraciət daxil olmuşdu. Komissiyada bunların hər birinə baxılır. Çünki rəsmi şəkildə müraciət daxil olmadığı halda ona baxıla bilməz. Bundan əlavə, qeyri-hökumət təşkilatlarında fəaliyyət göstərən şəxslərdən də cənab Prezidentə xahişlər daxil olub. Cənab Prezident də bütün bunları nəzərə alaraq konstitusion hüquqndan istifadə edərək bunları əfv edib. İndi çıxıb kimsə nəsə danışırsa, bu, artıq cəmiyyəti aldatmaqdır".

# *Elman Məmmədov:* Azərbaycan Ordusu ən yüksək standartlara cavab verir

Bu gün Azərbaycan regionda ən güclü orduya malik dövlətə çevrilib.

Ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri də ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərlər etməsidir. Hər görüşündə onlara sonsuz mübarizə əzmi aşılayan Ali Baş Komandan bununla orduya diqqət və qayğısını əyani şəkildə nümayiş etdirir.

Milli Məclisin deputatı Elman Məmmədov "İki sahil" qəzetinə açıqlamasında bildirdi ki, Azərbaycanda Müdafiə Nazirliyi 1991-ci ilin oktyabrında yaradılmasına baxmayaraq heç bir fəaliyyəti yox idi. Sadəcə quru adı olan bu qurumun nə kadr, nə də silah-sursat bazası yox idi. Torpaqların müdafiəsi yalnız pərakəndə fəaliyyət göstərən qəhrəman könüllü dəstələrin və şəxsi mənafelərə qulluq edən ayrı-ayrı başıpozuq silahlı dəstələrin ümidinə qalmışdı. Həmin dövrdə Azərbaycan oğulları böyük qəhrəmanlıqlar göstərərək çox adi silahlarla Vətən uğrunda döyüşürdülər. Ancaq hazırlıq və təminat, ən əsası isə vahid komandanlıq yox dərəcəsində idi. Bütün bunlar da düşmənə torpaqlarımızı işğal etməyə fürsət verirdi. Azərbaycanda Ordu quruculuğu Ulu Öndərimiz hakimiyyətə gəldikdən sonra təkmilləşməyə başladı. Ümummilli Liderin hakimiyyətə gəlişinin ilk günündən orduda kök salmış müəyyən xoşagəlməz vəziyyətlərin hamısı tədricən aradan qaldırıldı. Vahid komandanlıq yaradıldı. Həm kadr məsələlərində, həm də silah-sursat məsələlərində qayda-qanun bərqərar oldu.



Milli Məclisin deputatı qeyd etdi ki, ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan Azərbaycan Silahlı Qüvvələri bu gün Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz şərəfli missiyasını uğurla davam etdirir. Bugünkü Azərbaycan Ordusunun qüdrəti beynəlxalq qurumların hesabatlarında öz əksini tapır. Aprelin 2-də Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsində olan Ali Baş Komandan İlham Əliyev bildirdi ki, sonuncu reytinqə əsasən, Azərbaycan Ordusu dünya miqyasında öz potensialına görə 52-ci yerdə qərarlaşıb.

Bu çox böyük nailiyyətdir. Müstəqillik dövründə Azərbaycan Ordusunun yüksək səviyyədə inkişaf etməsi, hazırlığa nail olması çox ürəkaçan bir göstəricidir. Bu gün dostlarımızla yanaşı, düşmənlərimiz də Azərbaycan ordusunun nəyə qadir oldugunu görürlər. Təbii ki, dostlarımız sevinir, düşmənlərimiz isə pəjmürdə olurlar. Azərbaycan Ordusu öz hazırlıqlarını bu illər ərzində təmas xəttində ermənilərin törətdikləri təxribatlara cavab verərkən dəfələrlə nümayiş etdirib. 2016-cı ilin Aprel döyüşləri, Naxçıvan istiqamətində əldə etdiyimiz nailiyyətlər Azərbaycan Ordusunun hazırlığını, döyüş qabiliyyətini əyani surətdə göstərir. Bu gün Azərbaycan Ordusu özünün maddi-texniki bazası, silah-sursat təminatı ilə fərqlənir. Azərbaycan zabitinin biliyi, savadı, döyüş qabiliyyəti, hərbi hazırlığı, müasir texnikalardan baş çıxarması keçirilən böyük hərbi təlimlərdə təsdiqini tapır. Bütün bunlar hamısı deməyə əsas verir ki, biz ordumuza güvənirik, onunla fəxr edirik.

E.Məmmədov xüsusi olaraq vurğuladı ki, bir Azərbaycan vətəndaşı kimi Azərbaycan Ordusunun dövlətimizin və xalqımızın təhlükəsizliyini qorumağa yüksək səviyyədə hazır olduğuna əmindir: "Azərbaycan torpaqlarının işğaldan azad edilməsi üçün Ali Baş Komandanımızın əmrini gözləyir. İnanırıq ki, Azərbaycan Ordusu qısa bir müddətdə Ali Baş Komandanımızın rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad edəcək. Ərazi bütövlüyümüz təmin olunacaq."

✍ **Şəmsiyyə Əliqızı,**
***"İki sahil"***

# “O olmasın, bu olsun”

## FİLMİN MÜXALİFSAYAQ SSENARİSİ

Allah sənə rəhmət etsin, ay Üzeyir bəy! Əgər yaşasaydın və “özündənbəylərdən” ibarət müxalifət düşərgəsində baş verənlərdən xəbər tutsaydın, yəqin ki, əvvəlki ssenarini müasirləşdirib “Məşədiibadlar” adlı komediya yazardın.

Bəstəkar, ən məşhur operettaların müəllifi, publisist Üzeyir Hacıbəylinin böyüklüyü ondadır ki, müasiri olduğu dövrdə baş verən hadisələrə uyğun qələmə aldığı kəlamlar zəmanəmizdə də zərb-məsəl kimi işlədilir. Ən qəribəsi budur ki, dağıdıcı müxalifət düşərgəsində baş verən hadisələrlə adı çəkilən filmin süjet xətti oxşardır. Həmin filmdən məqamına uyğun gətirəcəyimiz misallarla dediklərimizi təsdiqləyək. Əvvəla, onu deyək ki, elə dağıdıcı müxalifət mənsublarının özləri etiraf edirlər ki, ağız deyəni qulağın eşitmədiyi düşərgədə baş verənlər əsl tragik komediyadır.

“Milli Şura”nın aprelin 6-na, Müsavat Partiyasının isə aprelin 7-nə təyin etdikləri mitinqlər illərdən bəri “siyasi fəaliyyətlərində” “mehriban düşmənlər” obrazını yaradan AXCP-Müsavat cütlüyünün birincilik davasının səngimədiyini göstərir. 25 ildən artıq davam edən birincilik mübarizəsində qrantların məzənnəsinə görə “qalib” və “məğlub” tərəflər yerlərini dəyişsələr də, mahiyyət eynidir: mənəmlik iddiası hər zaman üçün aktualdır. Hər iki partiya arasındakı düşmənçiliyin qurbanı olan nisbətən “kiçiklər” də etiraf edirlər ki, rəqiblər arasında illərdən bəri yaşanan rəqabətin təməlində daha çox qranta yiyələnmək iştahası durur. Bu günədək xarici havadarlarından aldıqları qrantları bölə bilməyən “islahatçı sədr”lə Müsavat başqanları arasındakı çəkişmələr Məşədibadsayağı “Bir dəli şeytan deyir, bunların ikisini də birdən al” sözlərinə uyğundur. Antiazərbaycan qüvvələr, xarici dairələr “Babalı Sərvərin boynuna” desələr də, ehtiyatı əldən verməyərək “Bu qədər pulum çıxıb, bir baxım görüm mal necə maldı” seçimini də yaddan çıxarmırlar. “Milli Şura” ilə Müsavat arasında seçim edənlər açıblar səxavət kisələrinin ağzını, qrantları “iki adaxlı arasında” bölərək sağa, sola səpirlər. İstədiklərinə nail olmadıqda isə “... bu ehsan deyil” təpkisini göstərirlər. Təki dünyada mövqeyi möhkəmlənən Azərbaycanda siyasi sabitlik pozulsun, ölkəmizin mövqeyinə xələl gətirilsin. Bu şəbəkənin üzvləri Emin Hüseynov, Emin Milli, Orduxan Teymurxan, Qənimət Zahid, Xədicə İsmayıl, Tural Sadıqlı kimi onları təlimatlandıran əlikərimlilər aldıqları qrantları bölə bilmədikləri üçün aralarında dava yaranır. Mitinqlərini eyni ərəfədə keçirmək niyyətində olan əzəli rəqiblər əvvəllər də bu cür “planlı yanlışlıqlara yol versələr də” Azərbaycan cəmiyyəti xəyanətkar dəstənin mənfur niyyətini bildiyi üçün hər zaman xalqla bir olan, insanların həyat tərzinin yaxşılaşması üçün önəmli islahatlar aparan iqtidarın yanındadır.

Hələ də mitinqlər üçün nəzərdə tutduqları tarixlər arasında seçim şansını qarşı tərəfə güzəştə getmək niyyətində olmayan “Milli Şura”, yaxud qurumun əsl sədri Əli Kərimli əzəli rəqibi, başqan Arif Hacılıya güzəştə getmək istəmir. Filmdə deyildiyi “kişiyə yox, kişinin pulu”na görə seçim edən, havadarlarından daha çox yararlanmaq istəyən tərəfləri maraqlandıran şəxsi mənafeləri, alacaqları qrantlardır. “İndi mən bu papağı necə qoyum ki, qızın məndən xoşu gəlsin” söyləyən Məşədi İbadın sözlərini müasirləşdirərək demək olar ki, Əli Kərimlinin xarici ölkələrdə formalaşdırdığı “agent şəbəkəsi”, trollor gözlərini də, qulaqlarını da dörd açaraq “ bəs mənim bir abbasım hara getdi?”nin axtarışındadırlar.



Xatırladaq ki, ötən aylarda da qrant üstündə dava edən Əli Kərimlinin “mühacir şəbəkəsi” Müsavatla “atəşkəsi” pozmuşdu. Xarici ölkələrdə yaşayan və Azərbaycan dövlətinə qarşı ardıcıl təxribat kampaniyası aparan şəbəkənin nümayəndələri həm də biri- birinə qarşı ifşaedici açıqlamalar da verirdilər. Özlərini “demokratiya carçısı” və “ədalət tərəfdarı” kimi qələmə verənlər, sözdə dövlət və millətin qayğısı ilə yaşadıqlarını bəyan edən “fədailər”, anti-Azərbaycan dairələrin maliyyəsi ilə fəaliyyət göstərən, sifarişləri yerinə yetirən milli satqınlar “iki adaxlı” arasında revanş edirlər. Onların əsas məqsədi daha çox qrant iyi gələn tərəfə yönəlməkdir. Bu kimi məqsədlərə xidmət edənlər sadəcə xain və düşmən dəyirmanına su tökən ünsürlərdir. Onu da xatırladaq ki, “Milli Şura”nın, sabiq daxili işlər naziri İsgəndər Həmidovun mitinq çağırışlarına təkcə vətəndaşlar deyil, düşərgədə təmsil olunan partiyalar da birmənalı olaraq etirazlarını bildirdilər.

Əgər Məşədi İbad neçə müddətdən bəri sükuta qərq olan düşərgədə daxili çəkişməni gündəmə gətirən “Azərbaycan Xalq Hərəkatı”nın növbəti iclasını seyr etsəydi, istər-istəməz bu sözləri deyəcəkdi: “Mən özüm “Tarixi-nadir” kitabını yarıya qədər oxumuşam, amma sənin dediyini anlamıram. Bu bisavadlar hardan başa düşsünlər.”

Əvvəla onu deyək ki, düşərgə mənsublarının ətrafına toplaşdıqları “Azərbaycan Xalq Hərəkatı” təşkilatının adı reallıqdan uzaqdır. Mitinqlərdə azsaylı iştirakçını bütün xalq kimi dəyərləndirməyin özü siyasi savadsızlıqdır. Çünki sayı 10 milyonu ötən Azərbaycan xalqı adından danışmaq hər hansı siyasi təşkilata, quruma deyil, yalnız dövlət başçısına məxsus səlahiyyətdir. Bir məsələni də unutmayaq ki, kiçik bir iclasda sözləri biri-birinə xoş gəlməyən bir təşkilatın “xalqı” təmsil etdiyini düşünməsi absurddur. Toplantının gərgin atmosferdə keçməsi, qarşıdurmaların jarqonlarla, ittihamlarla davam etməsi partiyalararası münasibətlərin qeyri-səmimiliyindən xəbər verir.

Sabiq daxili işlər naziri İsgəndər Həmidovun Milli Dövlətçilik Partiyasının sədri Nemət Pənahlının hərəkatın idarə heyəti üzvlüyündən çıxarılması ilə bağlı təklifinin mübahisəyə səbəb olması, siyasi baxışların fərqini göstərməklə “ Heç hənanın yeridir” deyimini də yada salıb. AXH-nin rotasiya üzrə sədri, AĞ Partiya başqanı Tural Abbaslı, VİP sədri Əli Əliyev və keçmiş hərəkatçı Bəxtiyar Tuncay N.Pənahlının çıxarılmasının əleyhinə olsalar da, səsvermə nəticəsində N.Pənahlı AXH-dən uzaqlaşdırılıb.

İsgəndər Həmidovun Tural Abbaslının hərəkatın idarə heyətindən uzaqlaşdırılması təklifinin yaratdığı qalmaqal “O olmasın, bu olsun” filmindəki qonaqlıq səhnəsini xatırladıb. Sabiq daxili işlər nazirinin arqument kimi T.Abbaslının gənc və yaşlı siyasətçilərlə bağlı “Yeni Müsavat”a verdiyi açıqlama bəhanəsindən yaranan gərginlik, əlbəyaxa dava həddinə çataraq söyüşlərlə davam edib. Belə ki, filmdən fərqli olaraq dava darvazadan atılan “qızıl güllə”, deyil, sillə-şapalaqla nəticələnib.

Bu kimi hallar, müxalifət cameəsindəki mənzərəni açıq şəkildə ortaya qoyan küçə söyüşləri, mübahisələr, hədələr, təhqirlər göstərir ki, radikalların demokratiyaya baxışları illər keçsə də, mahiyyətcə dəyişməyib.

Filmin ssenarisindən fərqli cəhət bu olub ki, “ucuzluq olması üçün bəy toyunda oynamayıb.” Çünki düşərgədə “ucuzluq” qrantların kəsilməsi deməkdir ki, radikallar ölsələr də buna razı olmazlar.

Azərbaycana qarşı xəyanətkar mövqelərini hər addımda bildirən marginallaşan, antimilli qruplaşmaya cavab bir il bundan qabaq keçirilən prezident seçkilərində həqiqi mənada Azərbaycan xalqının liderinə göstərdiyi etimad idi. “Bu seçkilər bir daha göstərdi ki, onların Azərbaycanın siyasi səhnəsində yeri yoxdur. Onların yerini Azərbaycan xalqı çoxdan müəyyən edib, bu da tarixin zibilxanasıdır. Xarici qrant, ianə hesabına fəaliyyət göstərən, öz dövlətinə qarşı çıxış edən, bir çox hallarda milli satqınlıq nümayiş etdirən ünsürlərə Azərbaycan xalqı bir daha öz yerini göstərdi. Seçkilərdən əvvəl və seçkilərdən sonra onların təşkil etdikləri yığıncaqlar bir daha onu göstərir ki, Azərbaycan xalqı heç vaxt imkan verməz ki, xaricdən idarə olunan qruplaşma Azərbaycanda hansısa mövqeyə sahib olsun. Biz bundan sonra da demokratik inkişafla bağlı səylərimizi artıracağıq, gələcək fəaliyyətimizdə də bu istiqamət önəmli yer tutacaqdır.”

✍ **Xuraman İsmayılqızı, *“İki sahil”***

# “Radikalların” gənclərdən cılız siyasi maraqları naminə istifadə etmək cəhdi və ...

**Azərbaycan dövlətinin gənclərə diqqət və qayğısı ən yüksək səviyyədədir. Bunun müqabilində isə Azərbaycan gəncliyi vətənpərvərliyi, dövlətə və xalqa hədsiz sədaqəti, öz fəallığı, intellekti, müasirliyi ilə seçilir. Ümummilli məsələlərin həllində gənclər ön sırada Azərbaycanın maraqlarını müdafiə edir, var qüvvələri ilə ölkəmizin çiçəklənməsinə, tərəqqisinə öz dəyərli töhfələrini verirlər.**



Azərbaycan Prezidentinin gənclər siyasətinin başlıca məqsədi gənclərin hərtərəfli inkişafını təmin etmək, onların sosial problemlərinin həlli və cəmiyyətdə layiqli yer tutması üçün əlverişli şərait yaratmaqdır. Bununla da Azərbaycan gəncləri də öz növbəsində Prezident İlham Əliyevin diqqət və qayğısını daim yüksək qiymətləndirirlər.

Lakin bir çox gənclər var ki, dövlətin onlara yaratdığı bu imkanlardan yararlanmaq istəmirlər. Sözsüz ki, bunun da səbəbi müəyyən antimilli qüvvələrin Azərbaycan gənclərini düzgün yoldan çəkindirməyə, onları dövlətə qarşı yönəltməyə və öz çirkin məqsədləri üçün istifadə etməyə çalışmalarıdır. Dağıdıcı müxalifət, xüsusilə AXCP, “Mİlli Şura”, Müsavat ətrafına yığdıqları 5-10 nəfər gənci mitinqlərə, piketlərə çıxmağa məcbur edirlər. Onlardan özlərinin cılız siyasi maraqları naminə istifadə etməyə çalışırlar. AXCP sədri Əli Kərimlinin ətrafındakı aldadılmış şəxslər heç vaxt Azərbaycan gəncliyini təmsil edə, onlara nümunə ola bilməzlər. Çünki Əli Kərimli gənclərə yalnız xəyanət, satqınlıq, riyakarlıq, dövlətə və xalqa qarşı düşmənçilik öyrədə bilər. Şübhəsiz ki, ondan başqa hərəkət gözləmək qeyri-mümkündür.

Vaxtilə radikal müxalifət üçün özlərini oda, közə atan Qiyas İbrahimov və İlkin Rüstəmzadə cütlüyünün indiki durumuna baxın. Prezidentin Əfv Sərəncamı ilə azadlığa buraxılan Qiyas İbrahimov və İlkin Rüstəmzadə onların adından istifadə edib siyasi divident qazanmağa çalışan dağıdıcı müxalifət liderlərinə etirazlarını bildiriblər. Belə ki, Qiyas İbrahimov anası Şura Əmiraslanovanın “facebook” profilindən istifadə edərək yazıb ki: “Qazamat dəhşətlidir, orada olmağa görə yox, çıxdıqdan sonra azadlığı itirə bilməyə görə. Buna imkan verməərəm! Özünüzə yeni qəhrəman axtarmağın vaxtıdır”. İlkin Rüstəmzadə isə mediaya müsahibəsində bildirib ki, hansısa müxalifət partiyasını və ya liderini qəbul etmək fikrində deyil: “Həbsxana elə bir yerdir ki, hansısa siyasi liderin hansısa kresloya oturmasına görə 1 gün belə qalmaram həbsxanada”.

Göründüyü kimi, nəhayət artıq Qiyas İbrahimov və İlkin Rüstəmzadə də anlayırlar ki, müxalifət liderləri siyasi divident qazanmaq üçün onların adlarından sui-istifadə edir. Ona görə də düşünürük ki, müxtəlif yollarla aldadılaraq mitinqlərə, kütləvi itaətsizliyə cəlb edilən gənclər də Qiyas İbrahimov və İlkin Rüstəmzadədən nümunə götürsünlər, radikal müxalifətin çağırışlarına rədd cavabı versinlər.

✍ **Mənsumə Babayeva, *“İki sahil”***

*Hikmət Babaoğlu:*

# Qlobal imperializm milli dövlətləri zəiflətmək üçün onların vətəndaşlarından vasitə kimi istifadə edir



Uzun illərdir ki, ermənipərəst dairələrdən qəpik-quruş alaraq ölkəmiz əleyhinə fəaliyyət göstərmək dağıdıcı müxalifətin həyat tərzidir. Avropada oturum almaq üçün min bir cildə girərək, Vətənini, millətini aşağılayan dağıdıcı müxalifətin antiazərbaycan fəaliyyəti cəmiyyətdə ikrah doğurur. Erməni lobbisinin maşasına çevrilən dağıdıcı müxalifətin antimilli fəaliyyəti hər zaman ziyalılarımızın etirazı ilə qarşılaşıb.

**Milli Məclisin deputatı Hikmət Babaoğlu İkisahil.TV-yə açıqlamasında bildirdi ki,** hazırda çox mürəkkəb bir beynəlxalq münasibətlər sistemində yaşayırıq və siyasi dəyərlərin manipulyasiya edildiyinin şahidi oluruq. Çox təəssüf ki, qlobal imperializm bu prosesdə milli dövlətləri zəiflətmək üçün onların özlərinin vətəndaşlarından bir vasitə kimi istifadə edir. Əgər belə demək mümkündürsə, bu gün bütün dünyada siyasi mühacirət anlayışı mövcuddur. Xüsusi maraqlı təşkilatlar məhz bizim coğrafiyamızda yerləşən dövlətlərə qarşı öz vətəndaşlarını siyasi mühacir kimi Avropaya daşıyaraq, ondan bir təzyiq vasitəsi kimi istifadə etməyə çalışırlar. Beləliklə də, öz maraqlarını təmin etmək üçün legitim hakimiyyəti şantaj edirlər.

Əslində bu gün Avropadan Azərbaycana qarşı hədyan söyləyən, ölkəmizi şantaj edən, qeyri-obyektiv informasiyalar ilə Azərbaycanın informasiya məkanını zəbt edən “siyasi mühacirlər” dediyimiz o insanlar da buna xidmət edirlər. Burada da kateqoriyalar fərqlidir. Onların bir qismi nə iş gördüklərinin fərqindədirlər. Bir qismi isə sadəcə sığınacaq almaq xatirinə kortəbii fəaliyyət göstərirlər. Gündəlik həyatlarını yaşamaq üçün bu imkanlardan yararlanırlar. Hesab edirəm ki, Azərbaycanın intellektual cəmiyyəti bu məsələlərin fərqində olmalıdırlar. Çünki bir çox ölkələrdən fərqli olaraq respublikamızda sabitlik hökm sürür. Ölkə başçısı çox uğurlu sosial siyasət aparır. Hər hansı bir çətinlikdə vətəndaşının yanındadır. Demək olar ki, Azərbaycan Prezidentinin humanist siyasəti bir ənənə xarakteri alib. Nə qədər mümkündürsə əfv sərəncamları ilə çoxsaylı ailələrə sevinc bəxş edir. Bunun mahiyyəti təkcə kimisə əfv etmək deyil, insanları düzgün yola dəvət etməkdir. Bu, eyni zamanda, islahın yalnız türmə vasitəsilə deyil, humanist addımlar vasitəsilə də mümkün olmasını təbliğ edir. Əgər bir insan bir səhvə yol veribsə ona şans verilir ki, ikinci dəfə bunu etməsin. Səhvini dərk etsin. Ancaq bəzən yanlışlıqların da şahidi oluruq. Ölkə Prezidentinin humanist siyasəti nəticəsində azadlığa çıxan bəzi şəxslər var ki, tutduqları əməldən peşman olmaq əvəzinə təxribat xarakterli fikirlər bildirirlər. Əlbəttə, bu ədalətli deyil. Çünki Azərbaycan elə güclü, müstəqil ölkədir ki, heç kəs ona təzyiq edə bilməz. Atılan addımları qərəzli şəkildə ölkə Prezidentinin humanist siyasəti kontekstindən deyil, məhz bu cür səsləndirmələri əslində manipulyasiyalardır. Bütün qərəzli fikirlər cəmiyyəti dağıtmaq və parçalamaq üçündür. Siyasi dyəyərlərimizi, əxlaqi dəyərlərimizi dəyərsizləşdirmək üçündür. Ona görə də düşünürəm ki, Azərbaycan ictimaiyyəti də, ziyalıları da baş verənlərin fərqindədirlər. Bu cür addım atanlar yalnız özlərinin ifşası ilə məşğul olublar. Hər kəs yaxşı görür ki, bu addımlar nəyə xidmət edir.

**Şəmsiyyə Əliqızı,**
***“İki sahil”***

# *Deputat:* İslahatlar dərinləşəcək

Son illər ölkəmizdə genişmiqyaslı islahatlara start verilib. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, islahatlar yenilik, yeni yanaşma, mövcud problemlərin həlli deməkdir. Nəticədə, iqtisadi islahatlar sayəsində əldə olunun uğurlar sosial sahədə çox ciddi addımlar atılmasına imkan yaratdı. Belə ki, bu il minimum əməkhaqqı, minimum pensiya təxminən 40 faiz artırıldı. Bundan 830 minə yaxın insan bəhrələndi. Şəhid ailələrinə verilən müavinətlər, digər sosial ödənişlər artırıldı. Sosial müavinətlərin orta hesabla iki dəfə artırılması isə 600 min insanı əhatə etdi. Tələbələrin təqaüdləri əhəmiyyətli dərəcədə artırıldı ki, bu da 100 mindən çox tələbənin maliyyə vəziyyətini yaxşılaşdırdı. Dövlət başçısının imzaladığı “Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında” Fərman isə 800 min nəfərdən çox insana şamil olundu. Halbuki indiyədək dünyanın heç bir ölkəsi belə bir addım atmayıb. Elə buna görə də bu, öz miqyasına, əhatə dairəsinə görə iqtisadçılar tərəfindən inqilabi xarakterli sənəd kimi dəyərləndirildi.

**Mövzu ilə bağlı “İki sahil” qəzetinə açıqlama verən Milli Məclisin deputatı Azər Badamov bildirdi ki,** ölkə başçısının atdığı bu addımlar ölkəmizin beynəlxalq aləmdə nüfuzunun daha da artmasına yeni bir təkan verib: “Belə ki, dünyanın bir sıra dövlətləri, o cümlədən beynəlxalq təşkilatlar iqtisadiyyatı möhkəm təməllər üzərində qurulmuş ölkəmizi insan inkişafı indeksinə görə də öndə gedən ölkələrdən biri kimi dəyərləndirirlər və təqdir edirlər”.

Müsahibimiz, həmçinin vurğuladı ki, bu ilin ilk ayları ölkəmizdə xüsusən sosial sahədə həyata keçirilən və 3 milyon vətəndaşın rifahına birbaşa təsir göstərən tədbirlərlə əlamətdardır: “Qısa müddət ərzində bu qədər sosialyönümlü qərarların verilməsi bir daha göstərir ki, Prezident İlham Əliyev üçün ən ümdə məsələlərdən biri vətəndaşlarımızın yüksək rifah içində yaşamasıdır. Bu, həm də Prezident İlham Əliyevin cəsarətli və inamlı, ölkə vətəndaşlarının gələcəyinə hesablanmış qətiyyətli siyasətinin təzahürüdür. Şübhəsiz, respublikamızın iqtisadi imkanları artdıqca vətəndaşlarımızın sosial rifahının daha da yüksəldilməsinin şahidi olacağıq. Artıq buna kimsə şübhə edə bilməz. Belə ki, bu ilin iki ayında ümumi daxili məhsul 3 faiz artıb. Bu isə son illər ərzində ən yüksək göstəricidir. Sevindirici haldır ki, bu artımda qeyri-neft sektorunun payı 15,5 faiz təşkil edir. Prezidentimizin qeyd etdiyi kimi, bu, dünya rekordudur. Bu müddətdə qeyri-neft sektoru üzrə ixrac 282 milyon ABŞ dolları olub. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar-fevral ayları ərzində qeyri-neft sektoru üzrə ixrac isə 40 milyon ABŞ dolları və ya 16,5 faiz artıb. Bu, son illər aparılan düşünülmüş ciddi iqtisadi islahatlar siyasətinin nəticəsidir. Faktlardan göründüyü kimi, bu gün Azərbaycan tərəqqi yolu ilə irəliləməkdə davam edir. Qeyd edək ki, Prezident İlham Əliyev artıq növbəti islahatların da anonsunu verib: “İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur”. Bu isə o deməkdir ki, dövlətimiz əldə edilmiş nailiyyətlərlə kifayətlənmir. Bu məqamda qazanılmış nailiyyətlər bizi gələcəyə daha da nikbinliklə baxmağa həvəsləndirir. Bu da yaxın illərdə vətəndaşlarımızın sosial vəziyyətlərinin daha da yaxşılaşmasına növbəti töhfələrini verəcək. Bununla da iqtisadiyyatı güclü olan ölkəmizin vətəndaşlarının sosial rifahı daha da yaxşılaşacaq”.



Milli Məclisin deputatı ölkəmizdə uğurla həyata keçirilən islahatların fonunda son vaxtlar xaricdə fəaliyyət göstərən anti-Azərbaycan dairələrin, eləcə də AXCP sədri Əli Kərimli kimi dağıdıcı müxalifətin fəaliyyətində fəallaşma nəzərə çarpdığını söylədi: “Şübhəsiz, onları narahat edən respublikamızın inkişafı, xalqımızın rifahının gündən-günə yüksəlməsidir. Amma dövlətin və xalqın milli maraqlarını satmaqla məşğul olanlar Azərbaycanı heç vaxt öz dinamik inkişaf yolundan döndərə bilməzlər”.

**Qvami Məhəbbətoğlu,**
***“İki sahil”***

*Bəhruz Quliyev:*

## Azərbaycan xalqı öz Ali Baş Komandanına, Ordusuna güvənir



Azərbaycan Ordusu bu gün öz inkişafı və tərəqqisi ilə, eləcə də güc potensialı ilə dünyanın ən elitar orduları sırasında yer alıb. Bu gerçəklik özünü hərtərəfli şəkildə sübuta yetirir.

**Bu fikirləri AZƏRTAC-a açıqlamasında ”SƏS” Media Qrupun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev deyib.**

Ekspert bildirib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin Aprel döyüşlərinin üçüncü ildönümündə Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsinə getməsi bu savaşda qəhrəmanlıq göstərmiş zabit və hərbçilərimizə diqqətin təcəssümüdür. Bilirik ki, 3 il öncə Silahlı Qüvvələrimizin bütün qoşun növləri işğalçı Ermənistanın təxribatlarının qarşısının alınmasında qəhrəmanlıq göstəriblər, Xüsusi Təyinatlı Qüvvələr isə öndə gedərək Aprel zəfərinə şücaətlə, canı-qanı bahasına yol açdı. Ali Baş Komandanın bu qoşun növünə aid hərbi hissəni ziyarət etməsi bütövlükdə torpaqlarımızın azadlığı uğrunda şəhid olan zabit və əsgərlərimizə ehtiramın göstəricisidir.

Prezident İlham Əliyev çıxışında Azərbaycan Ordusunun bu gün ən yüksək keyfiyyətlərə malik olduğunu və istənilən anda istənilən vəzifəni icra edə biləcəyini vurğuladı. Bu gün hərbi hissələrdə quruculuq işləri davam etdirilir, müvafiq təlimləri keçmək üçün hərbçilərə ən münbit şərait yaradılır. Əlbəttə, bütün bunlar ordumuzun sürətli inkişafının bariz göstəricisi olaraq qiymətləndirilir. Bu gün şanlı ordumuz dünya miqyasında ən güclü ordular sırasında yer almaqdadır. Zabit və hərbçilərimiz bir sıra antiterror əməliyyatlarında, NATO standartları səviyyəsində keçirilən böyük hərbi təlimlərdə, habelə ölkələrarası beynəlxalq təlimlərdə, müsabiqələrdə iştirak edərək nə qədər yüksək hərbi hazırlığa, potensiala malik olduqlarını sübuta yetirirlər.

Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli islahatlar proqramı Qarabağ müharibəsi və Aprel döyüşlərində şəhid düşmüş zabit və əsgərlərimizin ailələrinə, qazilərimizə də öz töhfələrini verir. Ölkə başçısı bu görüşdə həmin məsələyə də toxunaraq bildirib ki, yaralı hərbçilərimizin müalicəsi, bərpası üçün dövlət əlindən gələni əsirgəməyib və yaralanmış bütün hərbçilər xoşbəxtlikdən normal həyata qayıdıblar. Onların müalicəsi, bərpası, aktiv həyata qayıtmaları üçün bütün lazımi işlər görülüb. Eyni zamanda, hərbçilərin məişət, sosial problemləri həll olunur, onlara yeni mənzillər verilir və bu proses davam etdirilir. Azərbaycan Ordusu qısa dövr ərzində nəhəng inkişaf yolu keçib. Əvvəlki zamanlarla müqayisədə biz bunu aydın şəkildə görə bilərik.

Bəhruz Quliyev Prezident İlham Əliyevin çıxışında AXC-Müsavat cütlüyünün hakimiyyətdə olduğu vaxt xəyanətkar əməllərinə də toxunduğunu xatırladaraq bildirib ki, məhz həmin xəyanət nəticəsində işğal edilmiş torpaqlarda Ermənistan silahlı qüvvələri möhkəmləndi, Ermənistanla Dağlıq Qarabağ arasında canlı bağlantı yaradıldı və düşmənə imkan verdi ki, öz işğalçılıq siyasətini davam etdirsin. Əgər ulu öndər Heydər Əliyev olmasaydı Azərbaycan xalqı daha ağır fəsadlarla nəticələnəcək vəziyyətə düşəcəkdi. Məhz onun qətiyyəti, iradəsi, mübarizliyi sayəsində Qarabağda uğurlu əməliyyatlar keçirildi, Horadiz və digər yaşayış məntəqələrimiz erməni işğalından azad edildi. 2016-cı ilin Aprel döyüşləri və daha sonra əldə edilən Naxçıvan zəfəri bütövlükdə Qarabağımızın işğaldan azad edilməsinə açılan qələbə yolu oldu. Bu gün Azərbaycan xalqı öz Ali Baş Komandanına, Ordusuna güvənir, hər an torpaqlarının azad edilməsi üçün mübarizəyə hazır olduğunu nümayiş etdirir.

Siyasi ekspert vurğulayıb ki, artıq dünya birliyi, mötəbər beynəlxalq təşkilatlar da Qarabağ torpaqlarının Ermənistan tərəfindən işğala məruz qaldığını etiraf edir, müvafiq bəyanatlar, qətnamələr qəbul edirlər. Dövlətimizin başçısı öz çıxışında bu barədə danışarkən bütün mötəbər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələr qəbul etdiklərini xatırladıb. Bildirib ki, Azərbaycan dövləti və xalqı hüququn onun tərəfində olduğunu bilir və işğal altındakı torpaqlarımızın azad edilməsi üçün daim hazır olduğunu nümayiş etdirir. Ermənistan rəhbərliyinin bu və ya digər şəkildə danışıqlar formatını dəyişmək cəhdləri də heç bir nəticə verməyib, bundan sonra da verməyəcək. Çünki Prezident İlham Əliyevin birmənalı və qətiyyətli mövqeyi həmin cəhdlərin qarşısını birdəfəlik alıb. Elə sonuncu Vyana görüşündə də biz bu qətiyyəti gördük. Ölkə başçısının da vurğuladığı kimi, haqq-ədalət, tarixi həqiqət bizim tərəfimizdədir. O cümlədən iqtisadi və hərbi güc də bizim tərəfimizdədir. Son illərdə görülmüş işlər, hərbi sahədə aparılan islahatlar, hərbi gücümüzün artırılması, həm siyasi meydanlarda, həm də döyüş meydanlarında qələbələr bizi daha da ruhlandırır, daha da gücləndirir.

*Elçin Əhmədov:*

# Aprel döyüşləri Ermənistanın "qüdrətli ordusu"nun yalnız mif olduğunu sübut etdi



Azərbaycan Ordusunun 2016-cı il aprelin 2-dən 5-dək davam edən uğurlu əks-hücum əməliyyatları ölkəmizə hərbi-strateji nöqteyi-nəzərdən çox böyük üstünlüklər verdi. İlk növbədə, Azərbaycan çox mühüm psixoloji qələbə qazandı. Azərbaycan Ordusu Qarabağın şimal və cənub hissələrində çox böyük strateji əhəmiyyətə malik yüksəklikləri azad etdi. Bununla da, Azərbaycan öz torpaqlarını azad etmək bacarığını, potensialını, döyüş əzmini nümayiş etdirdi. Nəticədə, 4 günlük döyüşlərin beynəlxalq əks-sədası da dərhal eşidildi və Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlaması bir daha bütün dünyaya xatırladıldı. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar bu gün Azərbaycan Ordusunun dünyanın ən qüdrətli orduları sırasına daxil olmasına imkan yaratdı.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru, "Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədr müavini Elçin Əhmədov bildirib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 2019-cü il aprelin 2-də Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsində çıxışında bu gün Azərbaycan Ordusunun dünya miqyasında güclü ordular sırasında olduğunu vurğulayaraq bildirdi ki, bu gün Azərbaycan Ordusu uğurla inkişaf edir, ordu quruculuğu prosesi sürətlə gedir, hərbi hissələrimiz yenidən qurulur və tikilir, ordumuz ən müasir texnika ilə təchiz edilir: "Bu da təbiidir, çünki biz müharibə şəraitində yaşayırıq, müharibə hələ bitməyib, müharibənin birinci mərhələsi başa çatıb".

Aprel döyüşlərini bizim böyük tarixi qələbəmiz kimi dəyərləndirən Prezident İlham Əliyev qeyd etdi ki, Ermənistanın təxribatının qarşısını almaq üçün Azərbaycan Ordusu çox uğurlu əməliyyat keçirmiş və vaxtilə işğal edilmiş Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etmişdir: "Minlərlə hektar torpaq işğalçılardan azad edildi, on minlərlə hektar ərazi nəzarətimizə keçdi. Vaxtilə işğal edilmiş torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. Döyüşlər zamanı hərbçilərimiz peşəkarlıq, qəhrəmanlıq göstərmişlər. Bir daha göstərmişlər ki, Azərbaycan əsgəri, zabiti həm peşəkardır, həm Vətənə bağlıdır, həm də istənilən anda öz vəzifə borcunu yerinə yetirməyə hazırdır".

Aprel döyüşlərinin hərbi cəhətdən çox uğurlu əməliyyat olduğunu, əlverişsiz mövqelərdən bizim hərbçilərimizin çox önəmli strateji yüksəklikləri işğalçılardan azad etdiyini, həmçinin Ermənistanın yaratdığı mifin tamamilə darmadağın edildiyini vurğulayan Ali Baş Komandan bu döyüşlərin mənəvi-psixoloji baxımdan da böyük əhəmiyyətini diqqətə çatdıraraq bildirib: "...Ermənistan təbliğatı belə bir mif yaradırdı ki, onlar hərbi cəhətdən bizdən üstündür. Aprel döyüşləri bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusu bu gün ən yüksək keyfiyyətlərə malikdir və istənilən anda istənilən vəzifəni icra edə bilər".

Azərbaycan Prezidenti döyüşlər nəticəsində Cocuq Mərcanlı kəndinə yeni həyat verildiyini qeyd edib: "Cocuq Mərcanlı qısa müddət ərzində yenidən quruldu, 150 fərdi ev, məktəb, uşaq bağçası, tibb məntəqəsi, Şuşa məscidinin bənzəri olan məscid tikildi, yeni iş yerləri yaradılır. Yəni, Cocuq Mərcanlıya həyat qayıdıb. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmayacaq. Bu, bir daha onu göstərir ki, hər bir Azərbaycan vətəndaşı bir arzu ilə yaşayır - bizim işğal altındakı torpaqlarımız tezliklə azad olunsun və Azərbaycan öz ərazi bütövlüyünü bərpa etsin". Bununla yanaşı, hazırda ordu quruculuğu baxımından Azərbaycan dünyanın güclü ölkələrindən olduğunu diqqətə çatdıran Ali Baş Komandan bildirdi ki, sonuncu reytinqə əsasən Azərbaycan Ordusu dünya miqyasında öz potensialına görə 52-ci yerdədir və 2018-ci ildə il keçirilmiş iki hərbi parad bizim hərbi qüdrətimizi göstərdi: "Ordumuz üçün ən müasir silahlar, texnikalar alınır, ordumuzun döyüş qabiliyyəti artır. Aprel döyüşləri bunun bariz nümunəsidir. Ordumuz üçün nə lazımdırsa, biz onu edirik və edəcəyik".

Dövlət başçısı hərbi potensialımıza böyük diqqət göstərildiyini və bu sahədə mühüm nailiyyətlər əldə etdiyimizi bildirərək qeyd etdi ki, bizim ordumuzun döyüş qabiliyyəti artmış, uğurlu Naxçıvan əməliyyatı bunu əyani şəkildə sübut etmiş və bu əməliyyat nəticəsində Azərbaycan Ordusu strateji yüksəkliklərə sahib olmuşdur: "Bu yüksəkliklər imkan verir ki, biz çox böyük əraziyə nəzarət edək. Uğurlu Naxçıvan əməliyyatı bir daha göstərdi ki, ordumuz peşəkardır, ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir. Bütün bunlar reallıqdır. Bu gün hər bir Azərbaycan vətəndaşı haqlı olaraq Azərbaycan Ordusu ilə fəxr edə bilər və biz əsgərlərimizlə, zabitlərimizlə fəxr edirik. Azərbaycan Ordusu dövlətimizin ərazi bütövlüyünün qorunması işində rol oynayan əsas amildir".

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli haqqında danışan dövlət başçısı bizim mövqeyimizdə heç bir dəyişiklik olmadığını bildirərək vurğuladı ki, münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağın bizim əzəli, tarixi torpağımız olduğunu, əsrlər boyu xalqımızın bu torpaqlarda yaşadığını, qurub yaratdığını bildirərək deyib: "Bu gün bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Bütün mötəbər beynəlxalq təşkilatlar müvafiq qərar və qətnamələr qəbul etmişlər. Bu, tarixi və hüquqi əsasdır. Heç bir ölkə qondarma "Dağlıq Qarabağ respublikası"nı tanımayıb, əminəm ki, tanımayacaqdır".

Münaqişənin yalnız Ermənistan ilə Azərbaycan arasında getdiyini, torpaqlarımızın Ermənistan tərəfindən işğal edildiyini, eləcə də işğal edilmiş torpaqlarda qarşı tərəfdə hərbçilərin 80 faizinin Ermənistan vətəndaşları olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev bildirib: "Ona görə danışıqlar prosesi də iki ölkə arasında aparılmalıdır və aparılır. Son Vyana görüşü, o cümlədən ona görə önəmli idi ki, bu mövcud formatı bir daha təsdiqlədi. Həm xarici işlər nazirləri arasında aparılan danışıqlar, həm də rəhbərlik arasında keçirilmiş görüş bir daha onu göstərir ki, bu, Ermənistan-Azərbaycan münaqişəsidir. Biz hər dəfə bu münaqişə ilə bağlı sözümüzü deyəndə bu münaqişəni belə də adlandırırıq: Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi".

Münaqişənin nizama salınmasında Azərbaycanın tutduğu mövqe birmənalıdır. Problem yalnız Azərbaycanın ərazi bütövlüyü və ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həllini tapmalıdır. Bu mövqe beynəlxalq hüquq normaları və prinsipləri, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və münaqişənin nizamlanması istiqamətində qəbul edilmiş çoxsaylı beynəlxalq sənədlərə əsaslanır.

Azərbaycan Prezidenti deyib: "Haqq-ədalət, tarixi həqiqət bizim tərəfimizdədir. İqtisadi güc də, hərbi güc də bizim tərəfimizdədir. Son illərdə görülmüş işlər, hərbi sahədə aparılan islahatlar, hərbi gücümüzün artırılması, həm siyasi meydanlarda, həm də döyüş meydanlarında qələbələr bizi daha da ruhlandırır, daha da gücləndirir".

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Azneft" İstehsalat Birliyi

**Rezes-metçiklərə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11075AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 26.04.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla. 02.05.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya rus dilində əldə etmək istəyənlər 118 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 60 təqvim günü yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqəyə təklif verilən zaman olunacaq bank təminatı:***

Müsabiqə təklifinin təminatı üzrə bank qarantiyası - tələb olunmur.

* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1000, Bakı şəhəri, Səbail rayonu; Neftçilər prospekti 73; SOCAR, "Azneft" İB

**Əlaqələndirici şəxs:**

Musayev Kamil
Satınalmalar və Təchizat şöbəsi, ekspert
korporativ telefon nömrəsi: +99412 521 00 00 - 11 337 (daxili)
korporativ mobil nömrəsi: +99450 417 71 01
korporativ faks nömrəsi: +99412 521 11 72
korporativ elektron ünvanı: kamilH.musayev @socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı. 02.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:

http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**

# Cibin niyə göynəyir, soğan almısan?

Son günlər ölkədə soğanın qiymətində artım müşahidə edilir. Novruz bayramı ərəfəsində başlayan bu qiymət artımını vətəndaşlar ənənəvi olaraq sahibkarların "bayram bahalaşması oyunu" kimi dəyərləndirsə də, bayramdan sonra da qiymət artmaqda davam etdi. Nəticə olaraq bir ay əvvəl ən yaxşısını 50-60 qəpiyə aldığımız soğanın bu gün ən keyfiyyətsizini 1-1.2 manata alırıq. Ötən gün ərzində qiymətlərlə yerində maraqlanmaq üçün baş çəkdiyimiz "Kəndimiz", "3-cü mikrorayon" bazarlarında və bir neçə marketdə soğanın qiymətinin 1.3-1.7 manat arasında dəyişdiyini müşahidə etdik. Hətta bir neçə yerdə daha yaxşı və təmiz soğanın kiloqramını iki manata satanlar da var idi. Bu qiymətə soğan alanın həm cibi, həm də gözü göynəyir. Bəs səbəb nədir, illik tələbat 156 min ton olduğu halda, istehsal 233 min tondursa qiymətlər niyə belə "od tutub yanır?"

Baş çəkdiyimiz bazarlarda satıcıların bəzisi bunu İrandan idxalın məhdudlaşdırılması, digərləri isə ixracın artması və anbarlarda kəskin azalma ilə əsaslandırdı.

Məsələ ilə bağlı qəzetimizə açıqlama verən kənd təsərrüfatı sahəsi üzrə ekspert Nicat Nəsirli bunun daha çox daxili amillərlə bağlı olduğunu qeyd etdi. Müsahibimiz bunun mart-aprel aylarında ənənəvi hal olduğunu qeyd etsə də, heç bir zaman bu qədər qiymət bahalaşmasının olmadığını vurğuladı: "Düzü, bu hal Azərbaycanda hər bayram ərəfəsində baş verir. Lakin birinci dəfədir ki, mən soğanın qiymətinin bu həddə çatdığını görürəm. Qiymət artımının müxtəlif səbəbləri var. Sadəcə diqqətlə analiz etmək lazımdır. Ölkəmizdə soğana olan illik tələbat 156 min tondur. 2018-ci ildə isə sahələrdən 233 min ton yığım olub. Amma 2017-ci ildə 207 min ton yığım olmuşdu. Yəni ötən il ölkədə 26 min ton çox soğan istehsal edilib. Yadınızdadırsa, 207 min ton yığım olan zaman belə soğanın qiyməti "cib yandırmırdı". Göründüyü kimi, hər iki rəqəm illik tələbatdan kifayət qədər çoxdur."

İran amilinə də toxunan ekspert bildirdi ki, ümumiyyətlə, bu ölkədən Azərbaycana idxal olunan soğan çox cüzidir və bunun qiymət artımına elə ciddi bir təsiri yoxdur. Məsələnin daha çox daxili amillərdən və ixracdan qaynaqlandığını iddia edən Nicat Nəsirli bildirdi ki, bir sıra problemlər də var ki, soğanda ciddi itkilərə gətirib çıxarır: "Əsas səbəblərdən biri də odur ki, biz bu qədər həcmi düzgün idarə edə bilmirik. Birinci növbədə həcmin böyük hissəsi yazlıq sortlardır. Əgər böyük hissə payızlıq sortlar olsaydı, təbii ki, onlar uzunmüddətli və davamlı olardı. İlin sonuna qədər saxlanar, nəticədə tələbat təmin olunardı. Digər səbəblərdən biri də ixracın düzgün aparılmamasıdır. Belə ki, bu ilin iki ayı ərzində Türkiyə və digər ölkələrə 7500 tona yaxın soğan ixrac olunub. Rəqəmləri araşdıranda məlum olur ki, daxili tələbatın aylıq 20-25 günlük ehtiyacı xaricə satılıb".



Sahibkarların da yaranan vəziyyətdən sui-istifadə etdiyini xüsusi olaraq qeyd edən ekspert bildirdi ki, ən ciddi problemlərdən biri də odur ki, Azərbaycanda ixtisaslaşmış soğan saxlanc yerləri, xüsusiləşmiş anbarlar yoxdur: "Bunun üçün xüsusi avadanlıqlarla təchiz olunmuş anbarlar lazımdır. Biz görürük ki, adətən soğanı günlərlə, hətta aylarla piramida kimi sahəyə yığaraq müxtəlif ot, aləflə üzərini örtürlər. Bu zaman müxtəlif zərərvericilər formalaşır, torpaqda bakterial xəstəliklər yaranır. Onlar məhsula keçir, nəticədə xarab olan soğanın böyük hissəsi elə sahədəcə çürüyüb məhv olur. Bütün bu faktorlar həm əkin strukturunun düzgün qurulmaması, eyni zamanda, yüksək texnologiya ilə təmin olunmuş saxlanc yerlərinin olmaması ilə bağlıdır".

Qiymət artımı ilə bağlı Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin müşaviri Firdovsi Fikrətzadə ilə əlaqə saxlayıb onun məsələyə münasibətini öyrəndik. Kəskin qiymət artımını əsasən ixracın artması ilə izah edən müşavir bu ilin yaz mövsümündə Türkiyəyə soğan ixracının gözlənilməz şəkildə artdığını bildirdi: "Adətən Azərbaycandan yanvar-mart ayları ərzində 2-3 min ton soğan ixrac olunurdusa, bu ilin 2 ayı ərzində 7300 ton soğan ixrac edilib. Bu isə 6 dəfədən çox deməkdir. İxrac edilən 7300 ton soğanın 5900 tonu Türkiyəyə göndərilib ki, nəticədə daxili bazara bu formada təsir edib. Lakin bu hal çox davam etməyəcək, çünki tezliklə ölkədə faraş soğan istehsal olunacaq".

**Taleh Bağırov,**
***"İki sahil"***

## MÜSAVAT VƏ AXCP:
# İki "qoçun" başı niyə bir qazanda qaynaya bilməz?



AXCP və "Milli Şura"nın aprelin 6-da, Müsavatın isə aprelin 7-nə mitinq təyin etmək qərarları Əli Kərimli ilə Arif Hacılı arasında davam edən ənənəvi qarşıdurmanı daha da qızışdırıb. Köhnə rəqiblər bir-birilərinə əzələ nümayiş etdirməyə başlayıblar. Yenə də "açıblar sandığı, töküblər pambığı." Qarşılıqlı ittihamlar və təhqirlər baş alıb getməkdədir. Müsavat başqanı Arif Hacılı Əli Kərimlinin və "qoca professor" Cəmil Həsənlinin satqın və xəyanətkar olduğunu bildirib: "Əli Kərimlinin satqın və xəyanətkar olduğu həmişə bəlli olub. Ancaq bu qoca "professor" isə, əsl ələkçinin qılverənidir. Altdan-altdan satqınlıq edir, əyri yol gedir. Bu satqınlar qışqırmaqdan başqa, bir işə yarayan deyillər. Həyasızcasına deyirlər ki, guya Müsavat, sadəcə, yürüş etmək istəyir, biz isə mitinq. Əli Kərimli həmişə olduğu kimi, bu dəfə də satqınçılıq statusunu bir daha təsdiqlədi".

AXCP sədri Əli Kərimli də Arif Hacılının ittihamlarına və tənqidlərinə özünəməxsus şəkildə cavab verib. O da Hacılının "az aşın duzu" olmadığını öz arqumentləri ilə əsaslandırıb. Lakin burada həm təəssüf, həm də acı gülüş doğuran məqam var. Xalq bunların hər ikisini satqın və xəyanətkar kimi tanıyır. Azərbaycan ictimaiyyətinə yaxşı məlumdur ki, istər AXCP rəhbəri, istərsə də Müsavat başqanı uzun illərdir ki, antidövlət, antixalq kimi çirkin fəaliyyətlə məşğuldurlar. Bu adamlar heç vaxt sadə bir həqiqəti başa düşmək istəmirlər ki, Azərbaycan cəmiyyəti mənəvi dəyərlərini və nüfuzlarını çoxdan itirmiş bu insanların arxasınca getməyəcək. Özünü "Milli Şura" adlandıran quruma daxil olan bir sıra dağıdıcı müxalifət partiya və birliklərinin yanvarın 19-da törətdikləri əməllər göstərdi ki, Azərbaycan cəmiyyəti belə mənəviyyatsız və siyasi səbatsızları çoxdan tarixin arxivinə atıb. Çünki onların layiq olduqları yer elə oradır. Bunlar şərəfli əməyə xor baxan nankor insanlardır. Əyri əməlləri ilə Azərbaycanı gözü götürməyənlərə qulluq göstərməklə haram pul əldə etmək onların əsas məqsədidir. Hətta o da məlum olub ki, bunlar dolayısı ilə ermənilərə də xidmət göstərirlər. Bu barədə saysız-hesabsız təkzibedilməz faktlar məlumdur.

Hansı yolla olursa-olsun pul qazanmaq hərisliyi, hər iki dəstənin "başbilənləri"ni məcbur edir ki, bir-birilərinə badalaq gəlsinlər. Beynəlxalq təşkilatlara, məlum çevrələrə donoslar ötürməklə ölkədə siyasi sabitliyi pozmaq və bu yolla öz havadarlarından külli miqdarda pul qoparmaq üstündə çarpışma əksər hallarda daha "fəal" olan Əli Kərimlinin qələbəsi ilə nəticələnir. "Nə qədər pis olsa, o qədər yaxşıdır" prinsipi ilə hərəkət etmək onların hər ikisinin ortaq marağındadır.

Göründüyü kimi, ənənəvi düşmənlər olan AXCP və Müsavat arasında birincilik uğrunda rəqabət acı bağırsaq kimi uzanır. Onların birgə mitinq keçirməsi barədə danışmaq isə heç vaxt mümkün olan iş deyil. Necə deyərlər, iki "qoçun" başı bir qazanda qaynamaz. Bir-birilərini başı götürməyən Arif Hacılı ilə Əli Kərimlinin biabırçı sərgüzəştlərinin hələ çox şahidi olacağıq. Mitinqdə birləşə bilməyən iddiaçıların xalqı birləşməyə çağırmaları da tamamilə bayağıdır. Çünki xalq birdir, birləşə bilməyən onların özləridir. Həm də bu ayrılıq əbədidir, çünki iddialar onları birləşməyə heç vaxt imkan verməyəcək.

Beynəlxalq futbol yarışlarında qrup mərhələsini keçə bilməyən komandalar daha məsul mərhələyə buraxılmırlar. Qrupdakı rəqiblərinə uduzan komandaya "qrupdan çıxa bilmədi" deyirlər. Dağıdıcı müxalifət partiyalarının taleyi də eynilə buna bənzəyir, hərə iyirmi-otuz nəfərlik komandası ilə siyasi arenada daim uduzur, növbəti mərhələyə çıxa bilmir...

**Vəli İlyasov,**
***"İki sahil"***

## ÇİNİN NEFT NƏHƏNGLƏRİ XƏRCLƏRİ 20% YÜKSƏLDİR



Çinin üç iri dövlət neft və qaz şirkəti cari ildən xərcləri 20% artıracaq. Onlar ümumilikdə 74,4 milyard dollar sərmayə planlaşdırırlar.

"PetroChina", "CNOOC" və "Sinopec" 2-18-ci ildə tələbatın 70%-ni ödəmək üçün xaricdən neft gətirməyə məcbur olublar. Təbii qaz tələbatının isə 45%-i idxal hesabına ödənilib.

Sözügedən şirkətlər təkcə ölkə daxilində deyil, digər dövlətlərdə olan aktivlərinə də diqqəti artırmaq niyyətindədirlər.

Məsələn, "PetroChina" dövlət enerji şirkəti sərmayənin əsas hissəsini neft və qaz hasilatına yönəldəcək. Şirkət bundan əlavə Rusiyada və Kanadada iki mayeləşdirilmiş təbii qaz layihəsini tamamlamağı, Əbu Dabidə neft yataqlarından birində pay almağı planlaşdırır.

Çinin ikinci böyük neft hasilatı şirkəti "CNOOC" xərcləri 9,31 milyard dollardan 10,4-11,9 milyard dolları yüksəltmək fikrindədir.

"Sinopec" dövlət enerji şirkəti isə cari il ərzində sərmayə həcmini 41% artırmağı qərara alıb. "Sinopec" neft sahəsinə xüsusi diqqət ayıracaq.

## ABŞ İXRACI ARTIRIR

ABŞ son zamanlar ən çox mayeləşdirilmiş təbii qaz ixrac edən ölkələr sırasına qoşulub.

Hazırda ABŞ qaz rezervlərinin bütün potensialını üzə çıxarmaqla ixrac həcmini 100 milyon ton yüksəltmək niyyətindədir. Məlumatı "Tellurian" qaz şirkətinin baş icraçı direktoru Meg Centl açıqlayıb.

Qeyd edək ki, ABŞ-ın cari ixrac gücü 32,3 milyon ton təşkil edir.

Meq Centl əsas qaz mənbəyinin Qərbi Texasda Permian hövzəsi olduğunu xüsusi vurğulayıb. O, həmçinin bildirib ki, Asiyadan, Orta Şərqdən olan iri şirkətlərlə bəzi mühüm müqavilələr də imzalanacaq.

# Beynəlxalq İnternet Günü: şəbəkənin inkişaf tarixi



***Aprelin 4-ü bütün dünyada Beynəlxalq İnternet Günü kimi qeyd edilir. 2005-ci ildən tətbiq olunan bu bayram insanların həyat səviyyəsinin yüksəlməsinə xidmət edən yeni texnologiyaların imkanlarını nümayiş etdirmək, bu texnologiyalar və onların funksiyaları haqqında daha dərin məlumatları təqdim etmək üçün düşünülmüşdür. "ICTnews" xəbər xidmətinin qeyd etdiyi kimi, bu gün veb-usta (veb-developer, veb-dizayner) və ümumiyyətlə, qlobal internet şəbəkəsi ilə bağlılığı olan hər kəsin bayramıdır.***

İNTERNETİN YARANMASI

İnternet bəşər tarixinin ən böyük ixtirasıdır desək, yanılmarıq. Çünki internet olmadan XXI əsrdə həyatımızı təsəvvür etmək mümkün deyil. İnternetdə vahid idarəetmə mərkəzi, yaxud vahid müdiriyyət yoxdur. Buna baxmayaraq, şəbəkənin belə təşkili əslində dərindən düşünülmüş struktur deməkdir. Bu struktur 1969-cu ildə ABŞ Müdafiə Nazirliyi tərəfindən işlənmiş ARPAnet layihəsi çərçivəsində qurulmuş və on minlərlə dünya proqramçılarının kollektiv şüuru ilə getdikcə inkişaf etdirilmiş və mükəmməlləşdirilmişdir. 1958-ci ildə SSRİ-nin kosmosa ilk süni peyki buraxması ABŞ-ı müasir texnologiyaların inkişafını sürətləndirməyə sövq etdi. Bu məqsədlə yaradılmış xüsusi tədqiqat agentliyi olan DARPA yerüstü məlumat ötürülməsinin sürətləndirilməsi yönündə tədqiqatlara başladı. Bunun üçün ilk öncə ABŞ-da yerləşən bütün radarların vahid şəbəkədə birləşdirilməsi işinə başlanıldı. Bunun üçün müxtəlif məntəqələrdə, Pentaqonda, Hərbi Hava Qüvvələri, Hava Hücümundan Müdafiə bazalarında və digər məntəqələrdə yerləşən kompyuterləri vahid şəbəkədə birləşdirmək lazım idi. Bu işi görmək üçün ABŞ-ın ən yaxşı kompyuter mütəxəssisləri bir araya gətirildi. Uzun illər davam edən gərgin əmək və çoxlu tədqiqatlardan sonra 29 oktyabr 1969-cu ildə Kaliforniya Universitetindəki laboratoriyaların birində alimlər iki kompyuteri vahid sistemdə birləşdirə bildilər. Bu tarix internetin dünyada ilk dəfə meydana gəldiyi tarix hesab olunur. Artıq 1971-ci ildə 15 müxtəlif obyektlərdə olan kompyuterləri vahid şəbəkədə birləşdirmək mümkün olmuşdu. Bu sistemin adı ilk illər ARPANET idi.

1972-ci ildə ARPANET vasitəsilə elektron məktub göndərilməsinə imkan verən proqram yaradıldı. İlk dəfə olaraq @ işarəsi elektron poçt ünvanlarında işlədilməyə başlandı və 1980-ci ildə bu işarə Beynəlxalq standart kimi təsdiqləndi. 1973-1974-cü illərdə TCP/İP protokolu meydana çıxdı. TCP/İP protokolları ARPANET-in əsas qurucularından olan Robert Ken və Vindon Serf tərəfindən təklif olunub. TCP/İP protokolu 2 rabitə protokolundan ibarətdir. "Transmission Control Protocol" ötürməyə nəzarət protokolu - verilənlərin ötürülməsinə nəzarət edən protokol və "İnternet Protocol", yəni internet protokolu. 1980-ci ildə DNS yaradıldı. 1985-ci ildə ABŞ milli elm fonduna məxsus NSFNET - Milli elm fondu şəbəkəsi yaradıldı. Həmin ildə ilk dəfə olaraq 56 kb/saniyə sürətilə informasiya ötürülməsinin üsulu tapıldı. Növbəti ildə isə informasiya ötürülməsi üçün 1,5 Mb sürət əldə edildi. Lakin ilk illərdə bu sürəti qlobal olaraq hər yerdə deyil, yalnız laboratoriya daxilində tətbiq etmək olurdu. Şəbəkə vasitəsilə kompyuterlərdə olan çoxlu sayda sənədlərdən hamı eyni vaxtda istifadə edə bilməsi üçün 1989-1990-cı illərdə www sistemi yaradıldı. Tim Börner Li hiper mətnli sənədlər texnologiyasını yaratdı. Qeyd etmək yerinə düşər ki, Ser titulu qazanan Tim Börner 2004-cü ildə 15 il öncəki kəşfinə görə Beynəlxalq Fond tərəfindən 1.000.000 avro məbləğində pul mükafatı qazanıb.

İNTERNETİN QLOBALLAŞMASI

Bu proses 1988-1989-cu illərə təsadüf edir. Bu illərdə Kanada, Fransa, Almaniya və 1992-ci ildə Böyük Britaniya və Latviya NSFNET vasitəsilə internetə qoşuldular. "Internet Relay Chat" (IRC) protokolu 1988-ci ildə yaradılıb və şəbəkədə real zaman rejimində ünsiyyət qurmağa imkan verdi. 1989-cu ildə Avropa Nüvə Tədqiqatları Şurasında (CERN) məşhur ingilis alim Tim Berners-Lee tərəfindən təklif olunan Www (World Wide Web) konsepsiyası doğuldu. İki il ərzində Tim Berners-Lee HTTP protokolunu, HTML dilini və URİ'-lərini inkişaf etdirdi. Bir il sonra ilk dəfə telefon xətti ilə İnternetə qoşulmuşlar.

İnternet sözü isə ilk dəfə olaraq 1990-cı ildə istifadə olunmağa başlayıb. 1994-cü ildə ilk dəfə olaraq internetdən elektron kommersiya məqsədilə istifadəyə başlanılıb. Azərbaycanda internet 1993-cü ildən inkişaf etməyə başlamışdır.

Azərbaycanda genişzolaqlı xidmətlərin göstərilməsinə 2006-cı ildən başlanılmışdır və son illərdə istifadəçilərin sayında ciddi sıçrayış müşahidə olunmaqdadır. Bunun əsas səbəbi ölkədə İKT sahəsinin inkişaf etdirilməsi, elektron hökumət layihələrinin genişlənməsi, xidmətlərin göstərilməsi üçün internetdən istifadənin artırılması üzrə həyata keçirilən dövlət siyasətinin icrasının nəticəsidir. 2006-cı ildən başlayaraq Azərbaycanda internetin qiymətinin ardıcıl olaraq aşağı salınması üçün tədbirlər görülür. Son illərdə ölkədaxili internet şəbəkəsinin qlobal internet şəbəkəsinə qoşulma sürəti dəfələrlə artırılmışdır.

**Sevinc Azadi,**
***"İki sahil"***

# "Soyqırım: etnopsixoloji baxış" mövzusunda tədbir

Bakı Slavyan Universitetində Pedaqoji fakültənin nəzdində Pedaqogika və psixologiya kafedrasının təşkilatçılığı ilə 31 Mart- Azərbaycanlıların Soyqırımına həsr olunmuş "Soyqırım: etnopsixoloji baxış" mövzusunda tədbir keçirilib. Kafedranın müdiri, dosent Sevinc Axundova XX əsrin əvvəllərindən başlayaraq erməni daşnaklarının Azərbaycan xalqına qarşı törətdiyi cinayət əməlləri barədə məlumat verib. O, 1918-ci ilin mart ayında erməni qatillərinin Bakıda başladığı qırğınları tezliklə Azərbaycanın digər rayonlarında, indiki Ermənistanın bir çox bölgələrində və İrəvan şəhərində davam etdirdiklərini bildirib. S.Axundova sovet dövründə də düşmən qüvvələrin öz əməllərindən əl çəkmədiklərini, 1948, 1953-cü illərdə azərbaycanlıları Ermənistan ərazisindən köçürməklə öz çirkin planlarını həyata keçirmək istiqamətində ardıcıl addımlar atdıqlarını bildirib. S.Axundova erməni qəsbkarlarının bu gün də öz fəaliyyətlərini davam etdirdiklərini diqqətə çatdırıb.

Sonra söz kafedranın müəllimi Sevda Mansurovaya verilib. O, etnik münaqişələrin yaranma səbəbləri,etnik qruplararası konfliktlərin formaları və insan psixikasına vurduğu zərərlər haqqında iştirakçılara məlumat verib.

Kafedranın digər müəllimi Aygün Əliyeva Azərbaycan xalqının milli özünüdərk və milli şüurunun formalaşması tarixi barədə danışıb. O, gənclərin öz kimliklərini bilmələrinin, milli-tarixi köklərindən xəbərdar olmalarının zəruriliyini vurğulayıb.



Pedaqoji fakültənin təhsildə sosial-psixoloji xidmət ixtisasının tələbəsi Mədinə Hüseynova çıxışında dünyanın hazırda qaçqınlıq problemi ilə üz-üzə dayandığını vurğulayıb. O, qaçqınların yerləşdirilməsi, sosial təhlükəsizliklərinin təmin edilməsi və məşğulluq məsələlərinin həlli ilə bərabər, onların psixoloji yaşantıları və sarsıntılarının reabilitasiyasının gündəmdə olduğunu deyib.

Pedaqoji fakültənin rus dili müəllimliyi ixtisasında təhsil alan Xanım Məmmədova Quba soyqırımı məzarlığından, onun tarixindən və orada gördüklərindən söhbət açıb.

Azərbaycan tarixi və ictimai elmlər kafedrasının müdiri, professor Cahangir Məmmədov Azərbaycana qarşı düşmən qüvvələrin zaman -zaman apardığı işğalçılıq siyasəti, törətdiyi cinayətlər və xalqımızın qəhrəmanlıqları barədə danışıb, gənclərə öz tövsiyələrini verib.

Sonra həmin kafedranın müəllimləri Ərzuman Əmirov, Əli Rüstəmov soyqırımı haqqında konkret faktlar səsləndiriblər. Onlar da Azərbaycan gənclərini ayıq olmağa, elm və biliyə yiyələnməklə xalqımızı dünyada tanıtmağa çağırıblar.

# Ağcabədi taekvondoçuları 20 medal qazanıblar



Ağcabədi rayonunun taekvondoçuları Göygöl Olimpiya İdman Kompleksində keçirilən açıq birincilikdə uğurla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, Gənclər və İdman Nazirliyinin, Azərbaycan Taekvondo Federasiyasının, Göygöl rayon gənclər və idman idarəsinin dəstəyi ilə təşkil olunan yarışda ölkəmizlə yanaşı, İrandan və Gürcüstandan ümumilikdə 35 komandanın heyətində 570 idmançı mübarizə aparıb. Turnirdə uşaqlar, yeniyetmələr və gənclər kateqoriyalarında yarışlar keçirilib.

Yarışa 33 idmançı ilə qatılan Ağcabədi seçməsi 6-sı qızıl olmaqla 20 medal qazanaraq komanda hesabında ikinci yeri tutub. Qızıl medalları komandaya 2010-cu il təvəllüdlü idmançıların yarışında iki fərqli çəki dərəcəsində (30 və 33 kq) çıxış edən Çingiz Həsənov, Novruz Əliyev (27 kq), eləcə də Vasif Səlimov (2008, 30 kq), Kənan Əliyev (2008, 27 kq), Səfər Behbudzadə (2009, 24 kq) və Novruz Əliyev (2010, 27 kq) qazandırıblar. Məhz iki çəki dərəcəsində birinci yeri tutan doqquz yaşlı Çingiz Həsənovun qələbəsi Ağcabədi idmançılarının medal sayına görə komanda hesabında ikinci yeri tutmasında mühüm rol oynayıb. Komandanı yarışa 2-ci Dan qara kəmər ustası, məşqçi Zöhrab İsmayılov hazırlayıb.

Turnirdə komanda hesabında birinci yeri Sumqayıt, üçüncü yeri isə Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin klubları tutub.

# Lənkəranın dağ kəndləri inkişaf yolunda

Yazın gəlişi cənub mirvarisi sayılan Lənkərana əsl qurub-yaratmaq ovqatı gətirib. Rayonda olan inkişaf, yüksəliş onun dağ kəndlərində özünü daha qabarıq göstərir. Bəri başdan deyim ki, insan amilinə əsaslanan bu irəliləyişi təmin edən əsas şərt dövlət başçısı İlham Əliyevin Lənkəran camaatına qayğısıdır. Bəliton kəndi rayon mərkəzindən uzaqda yerləşir. Son vaxtlar burada aparılan abadlıq-quruculuq işləri kəndin hüsnünə özgə bir gözəllik qatıb. İndi bu dağ kəndində rahat, firavan həyat sürmək üçün hər cür şərait vardır. Müasir evlərin, yeni-yeni obyektlərin sayı durmadan artır. Camaatda ölkə rəhbərinə olan inam, fəallıq bundan da gözəl günlərdən xəbər verir. Sosial məsələlər ardıcıl həllini tapır, çörəyi torpaqdan çıxan kənd adamları əl-ələ verib bol məhsul yetişdirir, halal zəhmətlə günlərini şən keçirdirlər.

Yaxın günlərdə istifadəyə verilmiş məktəb binası ilə tanış oldum. Əvvəlki məktəb yararsız olduğuna görə sinif otaqlarına girmək belə təhlükəli idi. Amma indi bu təhsil ocağında tamam başqa mənzərədir. İkimərtəbəli bina özü yaraşıqlı olduğu qədər sinif otaqları da geniş və işıqlıdır. Məktəb müasir kompyuter texnologiyaları ilə təchiz edilib. İdman avadanlıqları da yenidir. Kənd sakinlərinin daim istifadə etdiyi Lənkəran-Vilvan-Osyuküçə-Türkəncil magistral avtomobil yoluna başdan-başa asfalt döşənib. Yolda olan rahatlıq ürək açır. Kənddaxili yolların cari təmiri başa çatıb. Elektrik enerjisi fasiləsiz verilir. Ümumiyyətlə, dağ kəndində xoş güzəran naminə bütün işlər məqamında görülür. Qayğıya görə hazırda bəlitonluları doğma yurdunun hər qarışını cənnət görmək istəyi birləşdirir.

**Zəfər Orucoğlu,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azəriqaz" İstehsalat Birliyi

**Plastik qapayıcı plomblara (Lot-2) və Plastik qapayıcı vasitələrə (Lot-3) olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (29010-19) üzrə müraciət vaxtı və zərflərin açılışı tarixinin uzadılmasını elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 19.04.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 29.04.2019-cu il, Bakı vaxtı ilə saat 11:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər Lot-2 üzrə 59 AZN (ƏDV daxil) və Lot-3 üzrə 59 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I bəndində göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
VÖEN SOCAR: 9900003871
Azərbaycan Beynəlxalq Bankı ASC, Müştəri Xidməti Departamenti,
VÖEN (bank): 9900001881
İBAN: AZ38IBAZ38010019449306332120
Müxbir hesab: AZ03NABZ01350100000000002944
SWIFT BIK: İBAZAZ2X
Kod: 805250

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Tələb olunmur:***

**Müsabiqə təklifinin təminatı:**

*I. İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur.*

*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*

*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*

*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

***Avans ödənişinə görə təminat:***

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

**Müqavilənin yerinə yetirilməsi təminatı:**

* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

***V. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsinin hər 2 Lot üzrə 2 ay müddətində yerinə yetirilməsi tələb olunur.

***VI. Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-dən çox olmamalıdır.***

***VII. Satınalan təşkilatın ünvanı:***

AZ1025; Bakı şəhəri; Xətai rayonu; Yusif Səfərov küçəsi, 23

**Əlaqələndirici şəxs:**

Kərimov Valeh Mirzə oğlu
"Azəriqaz" İB-nin Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi
+994125210000 (daxili 29681)
+994124904272 (faks)
valeh.kerimov@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***IX. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 29.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə Lot-2 üzrə saat 12:00-da, Lot-3 üzrə saat 12:30-da elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə bilər:

http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azəriqaz" İB-nin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Kompleks Qazma İşləri Tresti

**Sementə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (26032-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət ;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);
* Müsabiqə təklifinin təminatı;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 26.04.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır. Göstərilmiş tarixdən gec edilmiş ödəniş və müraciətə baxılmayacaqdır.

Tələb olunan sənədlərin elektron surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 03.05.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Müsabiqə təklifinin təminatı:***

Müsabiqə təklifinin təminatı, bank qarantiyası formasında iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğindən az olmamaq şərtilə, 03.05.2019-cu il , Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Müvafiq təminatı təqdim edilməyən təklif rədd ediləcəkdir.

Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.

Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə sorğu verməlidir.

***IV. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu əldə etmək istəyənlər əlaqələndirici şəxsə iştirak haqqının ödənilməsi barədə bank sənədini və müraciət məktubunu (elektron və ya çap) təqdim etməklə əsas şərtlər toplusunu (elektron və ya çap) Azərbaycan, ingilis və ya rus dilində əldə edə bilərlər.
* Qeyd olunmuş sənədlər elanın I paraqrafında göstərilmiş tarixədək iş günü ərazində saat 09:00-dan 17:30-a kimi təqdim və qəbul edilə bilər.
* İştirak haqqı 236 manat (ƏDV ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyutadır və Satınalan təşkilatın aşağıdakı bank hesabına ödənilməlidir:

Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***V. Təminatlar:***

* Müsabiqə təklifinin təminatı iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğindən az olmamaq şərtilə təminat tələb olunur.
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunacaqdır.

***VI. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***VII. Satınalan təşkilatın ünvanı:***

AZ1033, Bakı şəhəri, Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, 105.
SOCAR, Kompleks Qazma İşləri Tresti

**Əlaqələndirici şəxs:**

Hüseynov Anar.
Maddi-texniki təchizat və marketinq şöbəsi, şöbə rəisinin müavini
Telefon: (+99 412) 521-31-59
Faks: (+99 412) 521-31-59
Anares.Huseynov@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***IX. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 03.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə bilər:

http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Kompleks Qazma İşləri Trestinin Satınalmalar qrupu**

iki sahil
VAHİD AZƏRBAYCAN UĞRUNDA!
Son səhifə
www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 59 (7314) / Cümə axşamı, 4 aprel 2019-cu il

# Artıq çəki baş ağrılarına səbəb olur



İtaliyalı alimlər 500 könüllü insanın iştirakı ilə eksperiment həyata keçiriblər. Eksperimentdə iştirak edən könüllülər baş ağrılarından şikayət edirdilər.

Tədqiqatda iştirak edənlərin verdikləri analizləri laborator müayinədən keçdikdən sonra məlum olub ki, baş ağrıları əsasən artıq çəkidən əziyyət çəkən insanlarda daha çox rast gəlinir. Bununla əlaqədar olaraq alimlər hesab edirlər ki, baş ağrılarından azad olmaq üçün həblərdən istifadə etmədən belə xilas olmaq mümkündür. Bunun üçün düzgün qida və artıq çəkidən xilas olmaq bəs edir.

Bu, təkcə "baş" problemlərindən azad olmağa deyil, şəkər xəstəliyi riskinin azalmasına və ürək-qan damar sistemi xəstəliklərindən də xilas olmağa imkan verəcək.

Mütəxəssislər əlavə ediblər ki, eksperimentlər onların nəzəriyyəsini təsdiqləyib: tədqiqatın iştirakçıları artıq çəkilərini ataraq miqren ağrılarından daha az şikayət etməyə başlayıblar.

# Dünyanın ən məşhur muzeyləri hansılardır?



Dünyanın ən çox ziyarətçisi olan muzeylərin adları açıqlanıb. Birinci yeri Parisin Luvr muzeyi tutub. 2017-ci illə müqayisədə bu muzeyə gələnlərin sayı 2018-ci ildə 26% artıq olub. ekspertlər hesab edirlər ki, belə bir effekt məhşur müğənnilərin burada klip çəkilişləri aparması olub. Keçən il Luvr muzeyini 10 milyon insan ziyarət edib.

İkinci yeri Pekində yerləşən Çinin Milli muzeyi tutub. Bura gələnlərin sayı 8,6 milyon nəfər olub. Üçüncü yerdə isə Nyu York şəhərində Metropoliten muzeyi olub. 2018-ci ildə buranı ziyarət edənlərin sayı 7 milyon nəfər olub.

Bundan başqa, onluğa Vatikan, Londonda olan müasir Teyt qalereyası, Britaniya muzeyi, Londondakı Milli qalereya, Vaşinqton Milli incəsənət qalereyası, Peterburq Ermitajı və Londonda yerləşən Viktoriya və Albert muzeyləri daxil olub.

✍ **Könül Cavid, *"İki sahil"***

# Kollagenin orqanizmdə rolu əvəzsizdir



Kollagen orqanizmdə ən vacib proteinlərdən biridir. Bu protein növü hüceyrələri birləşdirir və bədəndə müqavimətin yaranmasında əsas rol oynayır. Kollagen əsasən qığırdaq, bağırsaq və sümüklərdə toplanır. Həkimlər kollagenin üç növünü müəyyən ediblər. Birinci və ikinci növ kollagenlər əsasən sümüklərdə və bağırsaqlarda, ikinci növ kollagenlər isə daha çox oynaqlarda olur.

İdmançılar əsasən, hidrolizə olunmuş kollagendən istifadə edirlər. Qeyd etmək lazımdır ki, alimlər bu yaxınlarda kollagenin belə istifadəsinin heç bir zərəri olmadığını açıqlayıblar.

Tədqiqatlar, həmçinin onu göstərib ki, kollagen bağırsaqları gücləndirir, zədələnmiş toxumaların regenerasiyasında böyük rol oynayır və oynaqlarda ağrıları azaldır. Bu mənada kollagen artıran preparatları nəinki idmançılar, oynaqlarında ağrılardan əziyyət çəkən insanlar da çəkinmədən qəbul edə bilərlər.

Kollagen sağlam dəri üçün çox vacib elementdir. Dərinin daha elastik və hamar olması bu proteindən asılıdır.

# Almaniya klubu qütb ayısına sponsor oldu




Bundesliqada çıxış edən "Herta Berlin" klubu verdiyi açıqlamada Berlindəki "Tierpark" adlı heyvanxanada 4 ay öncə dünyaya gələn körpə qütb ayısına sponsor olduqlarını açıqlayıb.

Milli.Az xəbər verir ki, bu barədə alman klubunun rəsmi Twitter hesabı paylaşdığı videoda məlumat yayıb. Klub nəsli kəsilmək təhlükəsi olan qütb ayısının ad sponsoru olub: "Berlində hər şey ola bilərsiniz. Adı "Herta" olan bir qütb ayısı belə..."

Videoda klubun talismanı olan boz ayı "Hertinyo" Berlin Olimpiya Stadionundan Tierparka doğru yola çıxaraq klubun yeni üzvü ilə bir araya gəlir. Daha sonra isə körpə qütb ayısı üzərində "Herta" yazısı olan topla oynamağa başlayır.

Heyvanxananın rəsmi saytının verdiyi məlumata görə, ağırlığı 385-410 kq arasında dəyişən yetkin bir qütb ayısına sponsor ola bilmək üçün illik ən azı 1000 avro ödəmək lazımdır.

# Neymar məşqə başlayır



PSJ-də zədəli futbolçu Neymarın son durumu məlum olub.

Milli.Az qol.az-a istinadən xəbər verir ki, braziliyalı futbolçu komanda ilə məşqlərə başlayıb. Neymarın iki həftəlik məşqdən sonra yenidən tibbi müayinədən keçəcəyi bildirilib.

Qeyd edək ki, Neymar yanvarın 23-də Fransa kubokunda "Strasburq"la oyunda zədələnmişdi.

# "Real" futbolçusuna qiymət qoydu



"Real" "Yuventus"un israrla istədiyi Rafael Varanı satmaq istəmir.

Milli.Az fanat.az-a istinadən xəbər verir ki, "Goal"ın əldə etdiyi məlumata görə, "Kral Klubu"nun rəhbərliyi fransalı ulduzu heyətinə qatmaq istəyən klubların qarşısını kəsmək üçün onun müqaviləsindəki sərbəst qalma bəndində göstərilən məbləği - 500 milyon avronu tələb edəcək. "Real" rəhbərliyi bu məbləği endirmək niyyətində deyil.

Son dünya çempionatının və 4 dəfə Çempionlar Liqasının qalibi olan Varanın "Real"dan ayrılaraq "Yuventus"a keçmək istədiyi deyilir. Lakin baş məşqçi Zinəddin Zidan 2023-cü ilədək müqaviləsi olan həmyerlisinin getməsini istəmir və onu yola gətirməyə çalışır. "L'Equipe"nin məlumatına görə, Zidana "yox" deyə bilməyən futbolçu yekun qərarını verməyə çətinlik çəkir.

# Ballı suyun faydaları



Hər səhər içilən bir stəkan ballı ılıq su bədən üçün çox faydalıdır. Hər gün səhər bir stəkan ballı su içərək sağlamlıq problemlərinizdən xilas ola bilərsiniz.

Balın tərkibindəki şəkər sağlam kalori qaynağı olan təbii şəkərdir. Ballı su içərək digər şəkərli içkilərlə müqayisədə siz orqanizminizin kalori istehlakını azalda bilərsiniz. Ballı su həzm sistemini normallaşdırır və mədə problemini aradan qaldırır. Bundan əlavə, qəbizlik probleminin qarşısını da alır. Bədəni toksinlərdən təmizləyir. Ballı suya limon əlavə edərək xəstəliyə səbəb olan toksinlərə qarşı faydasını artıra bilərsiniz. Ballı su boğazı yumşaltmaqla ağrı və qıcıqlanmanı azaltmağa kömək edir.

**Enerji verir**

Zəiflik və yuxusuzluq halında qəhvə əvəzinə ballı su içə bilərsiniz. Səhər oyanmada özünüzü daha tez gümrah hiss etmək istəyirsinizsə 1 stəkan ballı su için.

**Balın faydaları nələrdir?**

Balın şirin qida qaynağı olaraq təyin olunmasına baxmayaraq, diabet xəstələri üçün risk deyildir. Balda olan fruktoza və qlükoza maddələri qan şəkərini tənzimləməyə kömək edir. Diabet xəstəliyi ağırlaşmamış xəstələrin gündə 1 çay qaşığı bal yeməleri onlar üçün heç bir çətinlik yaratmır. Əksinə, 1 çay qaşığı bal istehlakı bədən üçün faydalıdır. Eyni zamanda, xolesterolun qarşısının alınması, orqanizmdəki iltihabın dayandırılması bal istehlakı ilə mümkündür.

**Öskürəyin qarşısını alır*
**Arıqlamaq üçün kömək edir*
**Göz sağlamlığını qoruyur*

✍ **Röya Rasimqızı, *"İki sahil"***

**ALLAH RƏHMƏT ELƏSİN!**

SOCAR-ın "Qaz İxrac" İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Azneft" İB-nin İstehsalat proseslərinin avtomatlaşdırılması və metrologiya şöbəsinin rəisi Feyzulla Səfərəliyevə, anası
**Nisə xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Qaz İxrac" İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi "BOS Şelf" MMC-nin maliyyə üzrə baş meneceri İlham Eminbəyliyə, atası
**Akif Eminbəylinin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin rəisi Fuad Süleymanov, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Qaz İxrac" İdarəsinin Təhlükəsiz, Ekologiya və Standartların idarə olunması şöbəsinin Sənaye-sanitar laboratoriyasının müdiri İlhamə Ramazanovaya, anası
**Cəmilə xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Azneft" İB-nin Dalğıc Xidmətinin kollektivi Xidmətin Mexanika və energetika şöbəsinin rəisi Fəxrəddin Söyün oğlu Həsənova, həyat yoldaşı
**Rəna Həsənovanın**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ: SOCAR

Baş redaktor: Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini: İsmayıl HACIYEV

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan: AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Çapa imzalanıb: 04.04.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8458
İndeks: 0151, Sifariş: 1087

Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "AzadInform", "TREND", SİA, InterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.